UNI-44_27 IYUI-QARA.qxd 12/14/2023 11:19 PM Page 1


# UNIKAL

№46 (2180) 15 dekabr 2023-cü il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev www.unikal.az unikal-1@mail.ru




# Yekun sülhün astanasında: Ermənistan manipulyasiya edir, yoxsa...




Səh.9

## Baş nazirdən Azərbaycan-Ermənistan sərhədi ilə bağlı qərar

*"Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyası və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiya arasında iclasların və birgə işçi görüşlərin təşkilinin və keçirilməsinin Reqlamenti" təsdiq edilib. "Unikal" xəbər verir ki, Baş nazir Əli Əsədov bununla bağlı qərar imzalayıb. Qərara əsasən, Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyası bu Qərardan irəli gələn məsələləri həll etməlidir. Qərara görə, İclasların və birgə işçi görüşlərin keçirilməsi tarixi, vaxtı və yeri Komissiyaların Sədrləri arasında razılaşma ilə müəyyən olunur. İclasların və birgə işçi görüşlərin...*

Səh.2

## "Azərbaycanda istənilən seçki üçün tam şərait var"



*Milli Məclisin Regional məsələlər komitəsinin sədri, deputat Siyavuş Novruzov "Unikal"a müsahibə verib. O, gələn il fevralın 7-də keçiriləcək növbədənkənar prezident seçkilərindən, bu seçkilərdən sonra referendumun keçirilməsi ehtimalından, parlamentdə deputatların sayının artırılmasından...*

Səh.4

## Tofiq Yaqublu SAXLANILDI



*Milli Şuranın üzvü Tofiq Yaqublu saxlanılıb. "Unikal" xəbər verir ki, bu barədə onun yaxınları məlumat yayıb. Bildirilib ki, Tofiq Yaqublu Nərimanov rayon Polis İdarəsinin əməkdaşları tərəfindən saxlanılıb və hazırda evində axtarış aparılır. Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin əməkdaşı İbrahim...*

Səh.2

## Azərbaycan bu il dünya ölkələri ilə səmərəli əməkdaşlıq qurub



*Azərbaycan Respublikası müstəqillik dövründə istər regionda, istərsə də dünya miqyasında ayrı-ayrı dövlətlər və beynəlxalq təşkilatlarla siyasi, iqtisadi, hərbi, sosial, mədəni və digər sahələrdə ikitərəfli və çoxtərəfli əlaqələr qurmağa və beynəlxalq nüfuzunu ildən-ilə artırmağa nail olub.*

Səh.11

UNI-44_27 IYUl-QARA.qxd 12/14/2023 11:20 PM Page 2



# Məşhurlar Yeni il çıxışları üçün nə qədər qonorar alacaq? - Siyahı



***Müğənnilərin Yeni il çıxışları üçün alacaqları qonorarın məbləği açıqlanıb.***

"Unikal" Baku.ws-ə istinadən xəbər verir ki, birinci yerdə Xalq artistləri Aygün Kazımova və Röya Ayxan qərarlaşıblar. Onların hər biri 30 dəqiqəlik çıxışı üçün 50 min manat tələb edirlər.

Sonrakı yerlərdə qərarlaşan müğənnilər aşağıdakı kimidir:

Eyyub Yaqubov - 20 min manat;
Zülfiyyə Xanbabayeva - 15 min manat;
Faiq Ağayev - 15 min manat;
Abbas Bağırov - 15 min manat;
Natavan Həbibi - 10 min manat;
Çingiz Mustafayev - 10 min manat;
Günay İbrahimli - 10 min manat;
Murad Arif - 10 min manat;
Samirə Əfəndi - 10 min manat;
Miri Yusif - 10 min manat;
Samir Bağırov - 7 min manat.

# "Qulaqlarını bağla, dinləmə" - Güneldən Aleynaya mesaj

***Müğənni Günel Zeynalova türkiyəli ifaçı Aleyna Tilki ilə bağlı paylaşım edərək, ona dəstək olub.***



"Unikal" axşam.az xəbər verir ki, ifaçı sənətə yeni gəldiyi vaxtlarda Aleyna kimi onun da çıxışlarına mane olunmağa çalışılmasından bəhs edib: "Sektor" dediyin sənətdir. Sənətini icra edənlər, musiqi savadına, özünə olan inama görə başqasının uğurunu alqışlayana bu sektorda olan deyilir. Amma təəssüf ki, hazırda sektor bu deyil. Sektordakı "dinozaurlar" deməliydin. Mən də kiçik yaşlarımda məşhur olmuş, böyük bacıların əngəlləri ilə qarşılaşmışdım. Aleyna, amma heç yıxılmadım. Onlara hər zaman hörmət göstərdim, həmişə siz böyüksünüz, "hə, hə" dedim. Çünki səsimə və sənətimə inandım. Sən də bacarıqlısan, Türkiyənin gənc pop ulduzusan. Yıxılma. "Əzmə" kampaniyasına aldanma, qulaqlarını bağla, eşitmə. Sənin uğurun hamımızın sevinci olmalıdır və dəstəkləməliyik. Sən irəliləməyə, parıldamağa, uşaqların sevgisini qazanmağa, gözəl mahnılar oxumağa davam et. Həmin bacılar püstə, fındıq atdıqlarını düşünsünlər" deyə, Günel paylaşımında yazıb.

Qeyd edək ki, müğənni Demet Akalın Aleynanın ünvanına "Türkiyədə onu alt geyimləri ilə səhnədə görmək istəmirik. Bir müddət əvvəl böyük səhnədə konserti olacaqdı, cəmi 60 bilet satılmışdı. Çox üzülmüşdüm" sözlərini deyib. Aleyna isə videoaçıqlama yayaraq "Bəziləri işini mükəmməl edir, bəziləri isə... Duyğu dili ilə danışan insan yoxdur. Mənim ölməyimi istəmələri normaldır? Çünki bunu istəyirlər, yox olmağımı istəyirlər. Vaxtında təcavüzə məruz qaldığım səhnəyə çıxmağımı istəyirlər. Özümü ifadə edə biləcəyim səhnəyə çıxmağımı istəmirlər. Çünki təşkilatçılar onlardır. Tamaşaçı istəyir, amma... Çünki sektorda 20-30 ildir işlədikləri insanların sözlərindən çıxa bilmirlər. Mənim daha çox pul qazana biləcəyim səhnəyə çıxmağıma imkan vermirlər" sözlərini söyləyib.



# Rəşad Dağlının qətldən əvvəl bıçaq aldığı məlum olub

***Meyxanaçı Rəşad Dağlı qətl törətmək üçün mağazadan bıçaq alanda kameralara düşüb. Görüntülərdən belə məlum olur ki, Rəşad Dağlı 2022-ci il noyabrın 9-da gecə saat 04 radələrində mağazaya daxil olur.***

"Unikal" xəbər verir ki, mağazada vitrindəki bıçağı seçən meyxanaçı pulunu ödəyərək oranı tərk edir.

İstintaq zamanı dindirilən Rəşad Dağlı bildirib ki, İsgəndər Mehdiyevlə görüşə gedərkən Bakı-Sumqayıt yolunda siqaret almaq üçün mağazaya girib. Siqaret alanda görüb ki, kassa olan masanın üstündə bıçaqlar var:

"İskəndərin "boş gəlmə" sözü yadıma düşdü. Bıçağı aldım və maşına əyləşib İskəndərin yaşadığı evin qarşısına gəldim".

Qeyd edək ki, Rəşad Dağlı ötən il noyabrın 9-da Bakının Qaradağ rayonu, Lökbatan qəsəbəsi ərazisində qonşusu - 1979-cu il təvəllüdlü İsgəndər Mehdiyevi maşınında bıçaqla qətlə yetirib. Hadisədən sonra meyxanaçı könüllü olaraq polisə təslim olub.

Bakı Ağır Cinayətlər Məhkəməsin hokmü ilə Rəşad Dağlı 9 il 6 ay müddətinə azadlıqdan məhrum edilib.

# Röyadan Ayanın sözlərinə reaksiya: "Ucuz bir markadan geyinsəm..."

***Xalq artisti Röya Ayxan müğənni Ayan Babakişiyevanın brend geyinən müğənnilərlə bağlı sözlərinə münasibət bildirib.***



"Unikal" publika.az-a istinadən xəbər verir ki, "Söz baz" verilişinə müsahibə verən superstar həmkarının sözlərini bəyəndiyini deyib: "Eşitdim və xoşuma da gəldi. Ayanı onsuz da çox istəyirəm, maraqlı qızdır".

R.Ayxanın sözlərinə görə, əslində brend geyinən başqa müğənnilər də var: "Amma bu onlarda, doğrudan da, görünmür. Mən isə populyar olmayan, ucuz bir markadan geyinsəm, o, məndə marka kimi görünəcək. Məncə, ən önəmlisi onu daşıyanlardır. Düşünürəm ki, onu çox gözəl daşıyıram. Adam da var ki, marka geyinib, amma heç hiss etmirsən. Onu da əzməyə ixtiyarımız yoxdur".

Xatırladaq ki, bir müddət əvvəl müğənni A. Babakişiyeva Azərbaycanda müğənnilər arasında Xalq artistləri Röya Ayxan, Aygün Kazımova, müğənni Gülay Zeynallı və özündən başqa bahalı brend geyinən sənətçinin olmadığını demişdi.

UNI-44_27 IYUI-QARA.qxd 12/14/2023 11:20 PM Page 3



# Hikmət Hacıyev Fond prezidenti ilə görüşdü



***Dekabrın 13-də Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Aktotı Raimkulova ilə görüşüb.***

Fonddan "Unikal"a bildiriblər ki, görüşdə Hikmət Hacıyev Aktotı Raimkulovanı Türk dövlətlərinin başçıları tərəfindən Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti təyin olunması münasibətilə təbrik edib. O, müasir dövrdə Türk xalqlarının hərtərəfli inteqrasiya proseslərinin gücləndirilməsinin önəmindən bəhs edərək, Türk dövlətlərinin mədəni əlaqələrinin inkişafında Təşkilatın rolunu vurğulayıb.

Söhbət zamanı Aktotı Raimkulova Qarabağın işğaldan azad olunmasını Azərbaycan və bütövlükdə Türk dünyası üçün tarixi əhəmiyyətə malik hadisə kimi qiymətləndirib. Təşkilatın rəhbəri bu il Türk dünyasında təntənəli şəkildə qeyd olunan əlamətdar yubileylər sırasında müasir müstəqil Azərbaycan dövlətinin qurucusu Ulu Öndər Heydər Əliyevin 100 illiyinə diqqət çəkib.

Aktotı Raimkulova Türk Mədəniyyəti və İrsi Fondunun yaradılmasında və qurulduğu ilk illərdən təşkilatın fəaliyyətinə dəstəyin verilməsində Prezident İlham Əliyevin müstəsna rolunu vurğulayıb. O, Fondun Azərbaycanın işğaldan azad edilmiş ərazilərində yenidənqurma və bərpa prosesinə töhfə verilməsinə, eləcə də ölkənin təklifləri əsasında təşkilatın bundan sonrakı fəaliyyətlərində yeni strateji istiqamətlərin həyata keçirilməsinə hazır olduğunu vurğulayıb.

Görüş qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi ilə davam edib.

# Bakının Baş Planı müzakirələrdən keçib



***Azərbaycanın işğaldan azad edilmiş ərazilərində qısa zaman kəsiyində nəhəng quruculuq və inşaat işlərinin aparılması dünya təcrübəsində nadir hadisələrdəndir. Artıq yol infrastrukturu sahəsində işlərin demək olar ki, əksəriyyəti icra olunub. Mühəndisi qurğular, mühəndisi xətlər, bölgələrdə ictimai və yaşayış evləri tikilir. Şəhərlərin və qəsəbələrin baş planları tərtib olunur.***

"Unikal" xəbər verir ki, bu sözləri Azərbaycan Memarlar İttifaqı İdarə Heyətinin sədri Elbay Qasımzadə "İşğaldan azad olunmuş ərazilərdə şəhərsalmanın və memarlığın inkişafı" mövzusunda keçirilən Qış Plenumunda jurnalistlərə müsahibəsində deyib.

E.Qasımzadə vurğulayıb ki, bu işlərin görülməsində əsas faktorlardan biri Prezident İlham Əliyevin daxili və xarici uğurlu siyasəti və iradəsi olub.

"Həmçinin ölkənin iqtisadi imkanları olmalıdır. Etiraf edək ki, burada insan və mütəxəssis amili də başlıca rol oynayır. Azərbaycanda kifayət qədər mütəxəssis var. Əlbəttə ki, bizim mütəxəssislərimizlə yanaşı xarici mütəxəssislər də çalışırlar. Ona görə də, biz tam arxayınıq ki, yaxın zamanda sözügedən ərazilərdə görülən işlərin nəticəsini görəcəyik", - deyə E.Qasımzadə əlavə edib.

Memarlar İttifaqı İdarə Heyətinin sədri, həmçinin Bakının Baş Planının hazır olduğunu və müzakirələrdən keçdiyini bildirib. Onun sözlərinə görə, Baş Plan qısa müddətdə təsdiqlənəcək: "Yeni planın əsas məqsədi Bakının mövcud ərazisinin daha səmərəli istifadə olunması, nəqliyyat problemlərinin, mühəndisi qurğuları problemlərinin həll olunması, ekologiya və digər məsələlərdir".

# Samir Şərifovun şirkətləri gündəmdən düşmür

## Maliyyə naziri öz adının hallandığı tenderlər barədə niyə susur?



***Səhiyyənin Təminatı Mərkəzi mal-material dəyərlərinin könüllü əmlak sığortası növü üzrə sığortalanması xidmətinin satın alınması ilə bağlı tenderə yekun vurub.***

Tenderin qalibi "Qala Sığorta" Açıq Səhmdar Cəmiyyəti (ASC) seçilib. Tərəflər arasında bağlanacaq satınalma müqaviləsinin maliyyə dəyəri 177 000 AZN-dir.

Qaynarinfo-nun yazdığına görə, İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin reyestr məlumatlarına əsasən, "Qala Sığorta" ASC 15 yanvar 1999-cu ildə qeydiyyata alınıb. Nizamnamə kapitalı 8 944 447 AZN olan şirkətin hüquqi ünvanı Bakı şəhəri Səbail rayonu, Nizami küçəsi, ev 96-da yerləşir. ASC-nin qanuni təmsilçisi Allahverdiyev Fuad Kamran oğludur.

"Qala Sığorta" ASC "Çartis-Azərbaycan" şirkətinin bazasında yaradılıb. Bu şirkət 1999-cu ildə təsis edilib. "Qala Sığorta" ASC-nin səhmlərinin 100 faizi "AzRe Təkrar Sığorta" şirkətinə məxsusdur.

Mediada gedən məlumatlara görə, "AzRe Təkrar Sığorta" şirkəti maliyyə naziri Samir Şərifova məxsusdur. Bu baxımdan, "Qala Sığorta" ASC-nin də nazirə məxsus olduğu deyilir. Maraqlıdır ki, həmin xəbər yayıldıqdan sonra qarşı tərəfdən deyilənlərlə bağlı hər hansı açıqlama gəlməyib.

Xatırladaq ki, Samir Şərifov 2006-cı ildən maliyyə naziri vəzifəsində çalışır.

O da maraqlıdır ki, "Qala Sığorta" ASC-yə məxsus ciddi hesabat blankı olan Daşınmaz Əmlakın İcbari Sığortası şəhadətnaməsi təxminən iki ay öncə itib. Bu barədə şirkətin rəsmi mətbuatda verdiyi elanda bildirilib.

Elanda deyilib ki, sənəd itdiyi üçün etibarsız sayılır.

Bu ilin avqust ayında isə Səhiyyə Nazirliyi könüllü tibbi sığorta xidməti ilə bağlı elan etdiyi kotirovka sorğusuna yekun vurub. Dövlət satınalmalarının vahid internet portalından aydınlaşıb ki, həmin sorğunun qalibi də "Qala Sığorta" ASC olub.

Xatırladaq ki, Samir Şərifova məxsus olduğu deyilən şirkətlərin adı son bir neçə ildə daim qalmaqallarda hallanıb. Məsələn, 2017-ci ildə ölkə rəhbərliyinin göstərişi ilə Yasamal rayonu, Mətbuat prospektində yerləşən "Ovçular evi" ərazisində yaşayış binasının tikintisi dayandırılıb. Buna səbəb həmin tikintini aparan şirkət tərəfindən ərazidəki 54 ağacın qanunsuz olaraq kəsilməsi və yaşıllığın tamamilə məhv edilməsidir. Nəticədə yaşıllığı məhv edən şirkət 130 min manat məbləğində cərimələnib.

Həmin vaxt dövlət başçısının sərt reaksiyasından sonra "Böyük plaza" adlanan yaşayış və ticarət mərkəzinin tikintisinin aparılmasına qadağa qoyulub.

Maraqlıdır ki, yayılan xəbərlərdə tikinti şirkətinin qaydaları pozduğu bildirilsə də, ancaq ictimaiyyətə hansı tikinti şirkətindən söhbət getdiyi məlum deyildi. Layihənin də adından göründüyü kimi, bu, sıradan bir tikinti şirkətinin həyata keçirəcəyi proyekt sayılmırdı. Həmin vaxt "Qafqazinfo" məsələ ilə bağlı kiçik bir araşdırma aparmış və məlum olmuşdu ki, tikintini həyata keçirəcək şirkət "A-3" Sənaye Tikinti Korporasiyası MMC-dir. Bu MMC haqqında internetdə heç bir informasiyaya rast gəlinməsə də, onun arxasında iri məmurun dayandığı bildirilmişdi. Adıçəkilən saytın əldə etdiyi məlumata görə isə sözügedən MMC məhz maliyyə naziri Samir Şərifovun birbaşa şəxsi şirkətidir.

Maraqlıdır ki, o zamanlar bu informasiya qarşı tərəfdən təkzib olunmamışdı.

Ötən il isə Maliyyə Nazirliyi yanında Maliyyə Elm-Tədris Mərkəzi tərəfindən keçirilən tender müsabiqələrinin qalibi açıqlanarkən bu, ölkə mediasında geniş əks-səda doğurmuşdu. Həmin vaxt yerli media bildirirdi ki, dəyəri 9 min manat olan tender müsabiqəsinin qalibi "Rn Corp 22" MMC olub. Bu şirkət Maliyyə Elm-Tədris Mərkəzinə əməliyyat sistemləri, ofis proqramları və antiviruslar satmalı idi. Ancaq o da aydınlaşmışdı ki, hüquqi ünvanı Qaradağ rayonu, Lökbatan ŞTQ, Keçid 1594, ev 30, m. 8, nizamnamə kapitalı isə 10 manat olan "Rn Corp 22" MMC tenderdən cəmi 5 ay əvvəl - 20.06.2022-ci il tarixində dövlət qeydiyyatına alınıb. Sitat: ""Rn Corp 22" MMC-nin qanuni təmsilçisi Məhərrəmov Rövşən Baladadaş oğlu qeyd olunan ünvanda qeydiyyatda olan daha bir neçə şirkətə rəhbərlik edir. Bu şirkətlər təsis olunduqdan qısa müddət sonra dövlət qurumlarının keçirdiyi tender müsabiqələrində qalib olublar. Məsələn, Məhərrəmov Rövşən Baladadaş oğlunun rəhbərlik etdiyi digər bir şirkət "Orlondo Az" MMC (VÖEN-1102637081) dövlət qeydiyyatına alındıqdan cəmi bir ay sonra Yevlax şəhər Mənzil Kommunal Təsərrüfatı Birliyinin keçirdiyi 105 min 800 manat, iki ay sonra isə Qazax Dövlət Sosial İqtisad Kollecinin keçirdiyi 31 min 300 manat dəyərində tender müsabiqəsində qalib olub... Tender müsabiqələrilə bağlı diqqət çəkən məqam odur ki, barəsində heç bir məlumat olmayan "Rn Corp 22" MMC fərqli dövlət qurumlarının fərqli istiqamətlərdə keçirdiyi tenderlərdə qalib elan edilib". Məsələn, Şəki Pedaqoji Texnikumu üçün təmir işləri gördüyü halda, bir dövlət qurumuna dərman və sarğı ləvazimatları, başqa bir dövlət qurumuna isə ofis mebelləri satıb. Lakin o da maraqlıdır ki, Şərifov və nazirliyi ictimai rəydə suallar yaradan bütün bu məlumatlara da aydınlıq gətirmək ehtiyacı duymayıb...

**Toğrul Əliyev**




# Yekun sülhün astanasında: Ermənistan manipulyasiya edir, yoxsa...

***Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov Ermənistanla münasibətlərin normallaşmasının real göründüyünü bəyan edib."Unikal" xəbər verir ki, o, dekabrın 14-də türkiyəli həmkarı Hakan Fidanla birgə keçirdiyi mətbuat konfransında Azərbaycan-Türkiyə müttəfiqliyinin bölgədə sabitliyin qorunmasının əsas faktoru olduğunu deyib. "Münaqişədən sonra Ermənistanla normallaşma əlaqələrinin yaranmasında tarixi fürsət var. Region ölkələri arasında münasibətlər qurulmalıdır. Ermənistan tərəfi də eyni yanaşma ilə addımlar atacaq və belə olan təqdirdə müsbət nəticələr əldə etmək real görünür", - nazir qeyd edib.***

C.Bayramov onu da əlavə edib ki, noyabrın sonunda Ermənistan tərəfindən aldığımız sülh sazişi üzrə şərtlərlə bağlı Azərbaycan tərəfi öz mövqeyini formalaşdırır. Onun sözlərinə görə, yaxın zamanlarda onlar qarşı tərəfə təqdim ediləcək.

Maraqlıdır ki, dünən dənizə çıxışı olmayan ölkələrin nazirlərinin görüşünün açılış mərasimində çıxış edən Ermənistanın baş naziri Nikol Paşinyan yaxın gələcəkdə Azərbaycanla sülh sazişinin imzalanmasını çox real adlandırıb: "Əgər Azərbaycan bu prinsipləri təsdiq edərsə, o zaman yaxın gələcəkdə sülh sazişinin imzalanması çox realdır. Regional kommunikasiyaların açılması Ermənistanla Azərbaycan arasında sülhün bərqərar olacağı təqdirdə mümkün olacaq. Dünənki əsir mübadiləsi buna əyani sübut idi. Bədbinlik yaradan faktlar üzərində dayanmaq istəməzdim, amma ən azından dünənki hadisəni sıfır nöqtəsi kimi dəyərləndirmək olar. Bundan istifadə edərək deyə bilərik ki, gələcək xəbərlər daha çox sülhün imzalanmasına işarə olsun".

Məsələ ilə bağlı "Unikal"a açıqlama verən deputat Aydın Mirzəzadə bildirib ki, Azərbaycan sülh prosesinə həmişə razı olub: "Sadəcə olaraq, Ermənistan Azərbaycan ərazisindəki separatçı rejimi dəstəkləyirdi və ümid edirdi ki, Azərbaycan onlara status verəcək. Bir günlük antiterror əməliyyatından sonra da Ermənistan müxtəlif yollarla Azərbaycana təzyiqlər etməyə çalışırdı. Bu gün isə, Ermənistan dərk edir ki, onun inkişafı üçün Azərbaycanla sülh müqaviləsi imzalamaqdan başqa çıxış yolu yoxdur. Azərbaycan və Türkiyə Ermənistanın qonşularıdır. Onlar dünya siyasətində mühüm rol oynayırlar və iqtisadiyyatları daim inkişaf edir. Azərbaycan regional iqtisadi layihələrin təşəbbüskarı olan dövlətdir. Ona görə də, Azərbaycanla ancaq dost olmaq olar. Azərbaycanla kim düşmən olmaq istəyəcəksə, Dəmir yumruğun zərbəsini alacaq. Bu baxımdan, Ermənistan tərəfindən də onların sülhə hazır olduğunu işarə edən və sülh müqaviləsinin yaxın müddət ərzində imzalanacağını göstərən fikirlər səslətdirilir. Əgər, bizim xarici işlər nazirimiz belə bir fikir səsləndiribsə, bu o deməkdir ki, doğrudan da, yaxın zamanda sülh müqaviləsi imzalana bilər. Azərbaycan buna yalnız "hə" deyə bilər. Ermənistan qonşu dövlətdir. Biz normal qonşuluq münasibətlərinin qurulmasında maraqlıyıq. Ticarət əlaqələri olmalıdır, ərazi bütövlüyünə hörmət edilməlidir, Ermənistan isə Azərbaycana və Türkiyəyə qarşı olan ərazi iddialarından birdəfəlik əl çəkməlidir və s. Prinsip etibarilə, bunlar hazır görünürsə, yaxın zamanda sülh müqaviləsinin imzalanmasının şahidi ola bilərik", - deyə o qeyd edib.



**Aydın Mirzəzadə: "Azərbaycanla kim düşmən olmaq istəyəcəksə, Dəmir yumruğun zərbəsini alacaq"**



**Elxan Şahinoğlu: "Ermənistanın Azərbaycanla sülh sazişi imzalaması İrəvanın həm Türkiyə, həm də Orta Asiya ilə əlaqələrinin normallaşmasına imkan verəcək"**

Deputat sərhədlərin delimitasiyası və demarkasiyası ilə bağlı proseslərə də münasibət bildirib: "Delimitasiya və demarkasiya prosesləri qısa zamanda həll olunacaq məsələlər deyil. Bunun üçün komissiyalar uzun müddət işləməlidirlər. Əsas odur ki, tərəflər sülh müqaviləsi bağlasınlar və hərbi münaqişələr olmasın. Sonra isə xəritələr əsasında və birgə iş nəticəsində sərhədləri konkretləşdirə bilərlər".

Politoloq Elxan Şahinoğlu qəzetimizə açıqlamasında deyib ki, Ermənistanın baş naziri Nikol Paşinyanın yaxın vaxtlarda Azərbaycanla sülh sazişinin çox real olmasını bəyan etməsi maraqlı məqamdır: "Dənizə çıxışı olmayan Ermənistan üçün Azərbaycanla sülh sazişinin əhəmiyyəti artıb. Birincisi, sülh sazişi imzalanarsa, Ermənistan Azərbaycan üzərindən Xəzər dənizinə və buradan Mərkəzi Asiyaya və Çinə çıxış imkanı əldə edəcək. İkincisi, Ermənistanın Azərbaycanla sülh sazişi imzalaması İrəvanın Türkiyə ilə də münasibətlərinin normallaşmasına və sərhədlərinin açılmasına imkan verəcək ki, Ermənistan Aralıq dənizinə çıxış imkanı qazanacaq. "30 ildən artıqdır ki, Ermənistanın Türkiyə və Azərbaycanla sərhədləri bağlıdır" - deyən Paşinyan bununla nəqliyyat kommunikasiyalarının açılmasına marağını ortaya qoyub. Ancaq bunun üçün Paşinyan rəsmi Bakının Zəngəzur dəhlizi təklifini qəbul etməlidir".

Politoloq başqa bir məqama da toxunub. O deyib ki, Ermənistanın xüsusi tapşırıqlar üzrə səfiri Edmon Marukyan İctimai telekanala müsahibəsində "10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanatda qeyd olunan bütün şərtlər artıq etibarlı deyil" fikirləri də olduqca maraqlıdır: "Bu fikri son günlər digər erməni rəsmilər də deyirlər. Bu, birincisi, o deməkdir ki, Ermənistan hakimiyyəti 10 noyabr bəyanatından imtina edir. Bəyanatın bizim üçün də mənası qalmayıb, çünki məlum sənəd imzalananda Laçın dəhlizi və Qarabağın bir hissəsi hələ Azərbaycanın nəzarətində deyildi. Azərbaycan sonrakı mərhələdə bu məsələləri həll etdi. Yəni, 10 noyabr bəyanatı Azərbaycan üçün də mənasını itirib. Bircə bəyanata görə Rusiya hərbi kontingentinin Qarabağda missiyasını davam etdirməsi bəndi qalıb ki, bunu da Bakı Moskva ilə danışıqlar əsasında həll edəcək. İrəvanın 10 noyabr bəyanatından imtinasının başqa mənası da var. Ermənistan hakimiyyəti artıq Moskvanın vasitəçiliyini qəbul etməyəcək. Bu Azərbaycanın maraqlarıyla da uzlaşır. Önəmli olan vasitəçisiz birbaşa danışıqları intensivləşdirmək və yeni razılaşmalar əldə etməkdir. Bunun üçün Rusiya və ya digər ölkənin vasitəçiliyinə ehtiyac yoxdur".

"Azərbaycan-Ermənistan arasında sülh sazişi ilə bağlı çərçivə sənədinin imzalanması üçün tərəflər ilk növbədə qarşılıqlı olaraq bir-birinin ərazi bütövlüyünü rəsmən tanımalı, qəbul etməlidir. Ancaq hansı ərazilərin bütövlüyündən söhbət gedir? Əsas sual budur". Bunu bakıvaxtı.az-a açıqlamasında keçmiş xarici işlər naziri Tofiq Zülfüqarov deyib. Sabiq nazir vurğulayıb ki, bu məsələnin dəqiqləşməsi uzunmüddətli danışıqlardan sonra mümkündür: "Ərazi bütövlüyü məsələsini əsas prinsip kim qəbul edirik, lakin söhbətin konkret hansı ərazilərdən getdiyi dəqiq deyil. Dəqiqləşmə danışıqların və müzakirələrin sonunda bəlli olacaq. Ermənistan baş naziri hər yanda 29-30 min kv.km. ərazidən danışır. Həmçinin, sərhədlərin 1975-ci ilin xəritəsinə əsasən aparılmasını istəyir. İrəvan bu məsələdə öz mövqeyini təbliğ edir. Amma sərhəd xəttinin hansı ərazilərdən keçəcəyi ikitərəfli danışıqların yekununda aydınlaşacaq".

Müsahibimiz daha bir məqama da toxunub. Onun sözlərinə görə, Ermənistan rəhbərliyi üç il ərzində dəfələrlə deyib ki, Qarabağ Azərbaycan ərazisidir: Buna baxmayaraq, öz hərbçilərini Qarabağda saxladı, separatizmi davam etdirdilər. Ona görə də bizə güclü təminatlar lazımdır ki, İrəvan hökuməti öz köhnə siyasətini davam etdirməyəcək. Bu məsələdə diqqətli olmalıyıq".

T.Zülfüqarov prosesin hələ birinci mərhələsində olduğumuzu söyləyib. Qeyd edib ki, sərhədlərin delimitasiya və demarkasiyası çox uzun prosesdir: "Qonşu Gürcüstanla 30 ildir bu proses gedir və ortada nəticə yoxdur. Kommunikasiyalarla bağlı da müzakirə qabaqdadır. Eyni zamanda təzminat məsələsi və digər humanitar proseslər illərlə çəkə bilər. Tərəflərin bir çox məsələyə baxışı bir-birindən fərqlənir".

***M.İbrahimli***

UNI-44_27 IYUI-QARA.qxd 12/14/2023 11:20 PM Page 5



# Prezident Hakan Fidanı qəbul etdi



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 14-də Türkiyə Respublikasının xarici işlər naziri Hakan Fidanı qəbul edib.***

"Unikal" xəbər verir ki, görüşdə ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi vurğulandı.

Dövlət başçıları və digər səviyyələrdə qarşılıqlı səfərlərin və təmasların əməkdaşlığımızın daha da möhkəmlənməsi işinə töhfə verdiyi bildirildi.

Söhbət zamanı əlaqələrimizin bundan sonra da bütün istiqamətlərdə daha da möhkəmlənəcəyinə əminlik ifadə olundu, əməkdaşlığımızın perspektivləri və qarşılıqlı maraq doğuran digər məsələlər ilə bağlı fikir mübadiləsi aparıldı.

# Azərbaycan və Türkiyə XİN rəhbərlərinin görüşü olub



***Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ölkəmizə rəsmi səfəri çərçivəsində Türkiyə Respublikasının xarici işlər naziri Hakan Fidanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.***

"Unikal" Azərbaycan XİN-ə istinadən xəbər verir ki, nazirlər arasında keçirilən təkbətək görüş daha sonra hər iki tərəfin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə davam edib.

Genişlərkibli görüşdə iki ölkə arasında ikitərəfli, regional və çoxtərəfli əməkdaşlıq gündəliyinin perspektivləri, bölgədəki cari vəziyyət, habelə işğaldan azad edilmiş ərazilərdə aparılan bərpa quruculuq işləri ətrafında fikir mübadiləsi aparılıb.

Görüşdə 2023-cü ildə Azərbaycanda Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinin, qardaş Türkiyədə isə Cümhuriyyətin 100 illik yubileyinin qeyd edilməsi fonunda iki ölkə arasında bütün səviyyələrdə təmaslarımızın daha intensiv, daha məhsuldar xarakter aldığı vurğulanıb.

Çoxşaxəli və zəngin Azərbaycan-Türkiyə strateji müttəfiqlik gündəliyinin cari vəziyyətindən məmnunluq ifadə edilib, siyasi, iqtisadi, ticarət, hərbi, müdafiə sənayesi, enerji təhlükəsizliyi, investisiyalar, humanitar, təhsil, mədəniyyət və digər sahələr üzrə münasibətlərin tarixi yüksəliş mərhələsində olduğu bildirilərək Şuşa Bəyannaməsinin bu xüsusda mühüm zəmin olduğu qeyd olunub.

Habelə, beynəlxalq və regional təşkilatlar çərçivəsində qarşılıqlı faydalı tərəfdaşlığın nümunəvi xarakter daşıdığı diqqətə çatdırılıb. Çoxtərəfli platformalarda, o cümlədən BMT və onun təsisatları, Türk Dövlətləri Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı, Mərkəzi Asiya ölkələri ilə üçtərəfli və dördtərəfli formatlar çərçivəsində birgə tədbirlərin intensivliyinin artırılmasının, yeni çoxtərəfli təşəbbüslərin irəli sürülməsinin əhəmiyyətindən söz açılıb.

Nazirlər həmçinin bölgəmizdə sabitliyin qorunmasında Azərbaycan-Türkiyə müttəfiqlik münasibətlərinin vacib roluna toxunub, Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin tam bərpası ilə bu gün bölgədə tarixi məqamın yarandığını, dövlətlərin suverenliyi və ərazi bütövlüyünün qarşılıqlı tanınmasının və bu kimi təməl prinsiplərə hörmətlə yanaşılmasının bölgədəki davamlı sülh, sabitlik və firavanlığa aparan yeganə yol olduğunu bir daha bəyan ediblər.

Görüşdə nazir Ceyhun Bayramov həmkarını Azərbaycanın işğaldan azad edilmiş ərazilərində aparılan genişmiqyaslı bərpa və quruculuq işləri, Ermənistanın 30 illik işğalı nəticəsində qaçqın və məcburi köçkün vəziyyətinə düşmüş vətəndaşlarımızın geri qayıdış prosesi, habelə Azərbaycan Ermənistan arasında etimad quruculuğu istiqamətində atılan son addımlar barədə məlumatlandırıb.

Nazir Cehyun Bayramov işğaldan azad edilmiş ərazilərdə fəaliyyətlərində Türkiyə tərəfinin aktiv iştirakını yüksək qiymətləndirildiyini vurğulayıb.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran digər ikitərəfli, regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Daha sonra nazirlərin iştirakı ilə keçirilmiş mətbuat brifinqində görüşün nəticələrinə dair bəyanatlar səsləndirilib, jurnalistlərin sualları cavablandırılıb.

Baş redaktor:
**Zaur Əhməd**

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5^A
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2000

# Baş nazirdən Azərbaycan-Ermənistan sərhədi ilə bağlı qərar



***"Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyası və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiya arasında iclasların və birgə işçi görüşlərin təşkilinin və keçirilməsinin Reqlamenti" təsdiq edilib.***

"Unikal" xəbər verir ki, Baş nazir Əli Əsədov bununla bağlı qərar imzalayıb. Qərara əsasən, Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyası bu Qərardan irəli gələn məsələləri həll etməlidir.

Qərara görə, İclasların və birgə işçi görüşlərin keçirilməsi tarixi, vaxtı və yeri Komissiyaların Sədrləri arasında razılaşma ilə müəyyən olunur. İclasların və birgə işçi görüşlərin işçi dilləri rus və ya ingilis dilləridir.

İclaslar və birgə işçi görüşlər Komissiyaların Sədrlərinin rəhbərliyi altında keçir.

İclaslar və birgə işçi görüşlər Komissiyaların Sədrlərinin razılaşması ilə bir qayda olaraq növbə ilə Azərbaycan Respublikasının və Ermənistan Respublikasının ərazilərində və ya Azərbaycan Respublikası ilə Ermənistan Respublikasının sərhədində və ya üçüncü ölkələrin ərazisində və ya videokonfrans formatında keçirilir.

İclasların və birgə işçi görüşlərin gündəlikləri, nümayəndə heyətlərinin siyahısı (Komissiyaların üzvləri istisna olmaqla) və iclasların və birgə işçi görüşlərin təşkilinin protokol məsələləri Komissiyaların Sədrlərinin razılaşması ilə müəyyən olunur. Nümayəndə heyətlərinin tərkibində iştirak edən xarici ekspertlər yalnız nümayəndə heyətlərinin tərkibinə daxil olduqları Komissiyanın adından çıxış edə bilərlər. Komissiyaların razılaşması ilə və birgə sorğu əsasında üçüncü tərəflər iclaslarda və birgə işçi görüşlərdə məşvərətçi yardım göstərə bilərlər.

İclasların və birgə işçi görüşlərin Komissiyalarla təmsil olunan dövlətlərdən birinin ərazisində keçirildiyi hallarda qəbul edən tərəf onların keçirilməsi üçün bütün zəruri şəraiti yaradır, habelə gələn nümayəndə heyətinin bütün üzvlərinin təhlükəsizliyini təmin edir və zəmanət verir.

Komissiyaların Sədrləri başqa cür razılaşmadıqları təqdirdə iclaslar və birgə işçi görüşlər qapalı rejimdə keçirilir. İşçi və razılaşdırılmış sənədlərin layihələri və iclasların və birgə işçi görüşlərin protokolları da daxil olmaqla iclasların və birgə işçi görüşlərin gedişatı və yekunları barədə istənilən məlumat yalnız Komissiyaların Sədrləri arasında ilkin razılaşma olduğu halda üçüncü tərəfə ötürülə bilər.

# DSX rəisi: "Xarici xüsusi xidmət orqanları ilə əlaqəli 8 şəxs tutulub"

***2023-cü ildə Dövlət Sərhəd Xidməti tərəfindən əldə edilmiş əsas nailiyyətlər açılanıb.***

"Unikal" xəbər verir ki, bu barədə xidmətdə keçirilən 2023-cü ildə xidməti döyüş fəaliyyətinin yekunlarına dair hesabat müşavirəsində DSX-a rəisi, general polkovnik Elçin Quliyev məlumat verib.

Xidmət rəisi bildirilib ki, iyunun 15-də Ermənistan Respublikası ərazisindən açılmış atəş nəticəsində "Laçın" dövlət sərhədindən buraxılış məntəqəsində xidmət aparan sərhədçinin yaralanmasına səbəb olan düşmən təxribatına cavab olaraq düşmən snayperlərinin, döyüş postunun və dislokasiya məntəqəsinin zərərsizləşdirilib: "Bu il ərzində dövlət sərhədini pozduqlarına görə 489, sərhəd rejimini pozduqlarına görə 10 689, axtarışda olan 3609, saxta sənədlərlə 252, özgəsinə məxsus sənədlə 4, dövlət sərhədindən buraxılış məntəqələrindən gizli şəkildə keçməyə cəhd edən 4 nəfərin sərhədçilərin sayıqlığı nəticəsində saxlanılıb. Ölkəmizə qarşı kəşfiyyat-pozuculuq fəaliyyəti məqsədi ilə xarici xüsusi xidmət orqanları ilə əlaqədə şübhəli bilinən 8 nəfərin müəyyən edilməsi, terrorçuluğa qarşı mübarizə çərçivəsində xaricdə döyüşmüş 7 nəfərin saxlanılması, narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə məşğul olan 21, qaçaqmalçılıqla məşğul olan 3, qeyri-qanuni miqrasiya ilə məşğul olan 5 mütəşəkkil cinayətkar dəstənin zərərsizləşdirilib".



Elçin Quliyev deyib ki, il ərzində 2 ton 95 kiloqram 338 qram narkotik vasitənin, 51 milyon 14 min 753 manat dəyərində qaçaqmalın dövlət sərhədindən qanunsuz keçirilməsinin qarşısının alınıb, 36 ton 222 kq narkotik xassəli bitkinin məhv edilib: "İşğaldan azad edilmiş ərazilərdə 150 km məsafədə yeni yolların çəkilməsi, 354 km yolların əsaslı təmir olunub, 7,1 km məsafədə hərəkət təhlükəsizliyi üçün xüsusi valların salınması; 2661 hektar ərazinin mina və partlamamış sursatlardan təmizlənib, 1598 ədəd piyada, 1763 ədəd tank əleyhinə mina, 518 ədəd partlamamış hərbi sursatın zərərsizləşdirilib".

# Tofiq Yaqublu SAXLANILDI

***Milli Şuranın üzvü Tofiq Yaqublu saxlanılıb.***



"Unikal" xəbər verir ki, bu barədə onun yaxınları məlumat yayıb.

Bildirilib ki, Tofiq Yaqublu Nərimanov rayon Polis İdarəsinin əməkdaşları tərəfindən saxlanılıb və hazırda evində axtarış aparılır.

Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin əməkdaşı İbrahim Əmiraslanlı bildirib ki, Tofiq Yaqublu Nərimanov rayon Polis İdarəsinin əməkdaşları tərəfindən saxlanılıb, hazırda araşdırma aparılır.

# Milli Məclisdə Prezidentin təqdim etdiyi sənəd müzakirə olundu

***Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin növbəti iclası keçirilib.***

Bu barədə "Unikal"a Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən məlumat verilib. Komitə sədri Ziyafət Əsgərov gündəliyə 6 məsələnin daxil olduğunu deyib və həmin məsələləri diqqətə çatdırıb. Əvvəlcə Ziyafət Əsgərov Cinayət Məcəlləsində, İnzibati Xətalar Məcəlləsində, "Azərbaycan Respublikası Silahlı Qüvvələri Daxili xidmət nizamnaməsinin təsdiq edilməsi haqqında" və "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" qanunlarda dəyişiklik edilməsi barədə" qanun layihəsi (birinci oxunuş) barədə məlumat verib. O, sənədin ölkə Prezidenti tərəfindən qanunvericilik təşəbbüsü qaydasında təqdim edildiyini söyləyib və layihədə adı çəkilən qanunvericilik aktlarına təklif olunan dəyişikliklər barədə danışıb.



Komitə sədri bildirib ki, Cinayət Məcəlləsinin müvafiq maddələrində nəzərdə tutulan düzəlişlərdə Azərbaycanın ərazi bütövlüyünün parçalanmasına yönələn atributları və ya simvolları nümayiş etdirmə, yayma, əldə etmə, saxlama, daşıma kimi qanunazidd əməllərə görə, habelə, Silahlı Qüvvələrin şəxsi heyətinin, hərbi silah, sursat və ya hərbi texnikasının hərəkəti, yaxud dislokasiyası haqqında məlumatların müharibə vaxtı və ya döyüş şəraitində yayılmasına görə cinayət məsuliyyəti müəyyən edilir. Nəzərə çatdırılıb ki, İnzibati Xətalar Məcəlləsinə təklif olunan dəyişiklikdə Silahlı Qüvvələrin şəxsi heyətinin, hərbi silah, sursat və ya hərbi texnikasının hərəkəti, yaxud dislokasiyası haqqında məlumatların mediada, o cümlədən internet informasiya ehtiyatında və ya informasiya-telekommunikasiya şəbəkəsində hərbi qulluqçular və ya toplanışa çağırılmış hərbi vəzifəlilər tərəfindən yayılmasına görə inzibati məsuliyyət müəyyən edilir. Yuxarıda göstərilənlərlə əlaqədar dövlət orqanları tərəfindən ictimaiyyətə açıqlanan məlumatların yayılması halları məsuliyyətə səbəb olmur.

Qeyd olunub ki, layihədə Silahlı Qüvvələrə dair məlumatların yayılmaması ilə bağlı "Azərbaycan Respublikası Silahlı Qüvvələri Daxili xidmət nizamnaməsinin təsdiq edilməsi haqqında" və "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" qanunlara da müvafiq dəyişikliklər nəzərdə tutulub.

Məsələ ətrafında müzakirələrdə komitənin sədr müavini Hikmət Məmmədov, üzvləri Erkin Qədirli, Elşad Mirbəşir oğlu, Aqil Abbas, Nurlan Həsənov, Aydın Mirzəzadə çıxış ediblər. Deputatlar məsələnin aktuallığını və təhlükəsizlik baxımından əhəmiyyətini qeyd ediblər.

Komitə sədri Ziyafət Əsgərov və iclasda iştirak edən Müdafiə Nazirliyinin Hüquq İdarəsinin rəisi Elçin Əliyev qaldırılan məsələlərə aydınlıq gətiriblər.

Sonra Ziyafət Əsgərov Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Hərbi xidmətkeçmə haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə" qanun layihəsini (birinci oxunuş) təqdim edib. O, bildirib ki, Prezident tərəfindən təqdim olunmuş qanun layihəsi zabitlərin həqiqi hərbi xidmətinə qəbul ediləbilən şəxslərin dairəsinin genişləndirilməsi məqsədilə hazırlanıb.

Təklif edilən dəyişiklikdə, gizir və miçman vəzifələrində beş il və daha çox xidmət etmiş, zabit vəzifəsinə təyin edilmiş tam orta təhsilli (yalnız müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi dövr ərzində) gizir və miçmanlara hərbi hazırlıq keçdikdən və müəyyən edilmiş qaydada imtahan verdikdən sonra kiçik leytenant hərbi rütbəsinin verilməsi imkanı yaradılır.

Gündəlikdəki növbəti məsələni - "Hərbi qulluqçuların statusu haqqında", "Hərbi xidmətkeçmə haqqında" Əsasnamə"nin təsdiq edilməsi barədə", "Əmək pensiyaları haqqında" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" qanun layihəsini (ikinci oxunuş) komitə üzvü Arzu Nağıyev diqqətə çatdırıb. Qanun layihəsində hərbi qulluqçuların pensiya hüququ, təhsil almaq hüququ və xidmət keçmə müddətləri ilə bağlı dəyişikliklər nəzərdə tutulub.

Sonra komitə sədri Ziyafət Əsgərov "Mühasibat uçotu haqqında" və "Dövlət sirri haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" (ikinci oxunuş) qanun layihəsinə dair məlumat verib. O qeyd edib ki, qanun layihəsində iqtisadi sahədə dövlət sirrini təşkil edən məlumatların dairəsi dəqiqləşdirilir və buraya hərbi məhsulları işləyib hazırlayan və ya istehsal edən müəssisələrlə yanaşı, eyni zamanda, bu məhsulların ixracını, satışını həyata keçirən, həmçinin bu işi təşkil edən müəssisələr və onların maliyyə hesabatları da aid edilir.

Ziyafət Əsgərov "Milli təhlükəsizlik haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini (ikinci oxunuş) təqdim edərək, bildirib ki, ölkəmizin qoşulduğu "Xəzər dənizinin dəniz ətraf mühitinin mühafizəsi haqqında" Çərçivə Konvensiyasında "dəniz ətraf mühiti" ifadəsinin işlənildiyi nəzərə alınaraq, sənəddə müvafiq dəyişikliyin edilməsi təklif olunur.

Sonra komitə sədri "Antiinhisar fəaliyyəti haqqında", "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında", "Mülki müdafiə haqqında", "Taxıl haqqında", "Milli təhlükəsizlik haqqında", "Dövlət sirri haqqında", "Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında" və "Qiymətli metallar və qiymətli daşlar haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" qanun layihəsi (üçüncü oxunuş) ilə bağlı məlumat verib. Bildirilib ki, sənəddə "Dövlət ehtiyatları haqqında" qanunla tənzimlənən məsələlər müvafiq qanunlardan çıxarılır və bir sıra terminlər dəqiqləşdirilir.

Gündəliyə daxil olan 6 qanun layihəsinin hər biri Milli Məclisin plenar iclasına tövsiyə olunub.

İclasda komitə üzvləri Əminə Ağazadə, Elman Məmmədov, Bəxtiyar Sadıqov və digər rəsmi şəxslər iştirak ediblər.

# Hakan Fidan Türkiyə-Ermənistan sərhədlərinin açılmasından danışdı



***Azərbaycanla Ermənistan arasındakı sülh danışıqlarının yekunlarına əsasən Ermənistanla sərhədlərin açılıb-açılmamasına qərar veriləcək.***

"Unikal"ın xəbərinə görə, bunu Türkiyənin xarici işlər naziri Hakan Fidan dekabrın 14-də Bakıda Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovla birgə keçirdiyi mətbuat konfransında deyib.

"Qeyd etdiyimiz kimi biz bu məsələ ilə əlaqədar Azərbaycana dəstək vermişik və verəcəyik", - o bildirib.

# MEDİA onlayn və çap mediasına dəstək müsabiqənin nəticələrini açıqladı



***Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi tərəfindən çap mediası subyektlərinin inkişafı, iqtisadi müstəqilliyinin gücləndirilməsi, fəaliyyətinin təkmilləşdirilməsi, habelə dövlət və cəmiyyət üçün əhəmiyyət kəsb edən layihələrin həyata keçirilməsi məqsədilə təşkil edilən müsabiqənin nəticələri açıqlanıb.***

Bu barədə "Unikal" MEDİA-dan xəbər verilib. 6 gündəlik, 11- həftəlik olmaqla, 17 qəzet maliyyə yardımı alacaq.

Bundan əlavə, onlayn media subyektlərinin (veb-saytların) inkişafı, iqtisadi müstəqilliyinin gücləndirilməsi, fəaliyyətinin təkmilləşdirilməsi, habelə dövlət və cəmiyyət üçün əhəmiyyət kəsb edən layihələrin həyata keçirilməsi məqsədilə təşkil edilən müsabiqənin də nəticələri açıqlanıb. Müsabiqənin 39 qalibi var.

# "Qaçqınkom"dan sosial şəbəkələrdə yayılan məlumatlara münasibət



***Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramının icrası çərçivəsində bərpa-quruculuq işlərinin aparıldığı Qarabağa və Şərqi Zəngəzura keçmiş məcburi köçkünlərin qayıdışı davam edir. Qayıdış prosesi ilə bağlı hər bir məlumat Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin rəsmi saytında (idp.gov.az) operativ qaydada yerləşdirilir və sosial media hesablarında da müntəzəm paylaşılır.***

Bu barədə Komitədən "Unikal"a məlumat verilib.

"Təəssüf ki, bəzi şəxslərin sosial media hesablarında Dövlət Komitəsinin səlahiyyətlərinə aid olan məsələlər barədə həqiqətə uyğun olmayan, yalan məlumatların yayılması hallarına rast gəlinir. Bu günlərdə sosial mediada bir nəfər iddia edib ki, onda işğaldan azad edilmiş ərazilərə ilkin mərhələdə köçürüləcək şəxslərin siyahısı var.

Belə məlumatların məcburi köçkünlər arasında çaşqınlıq yarada biləcəyini nəzərə alaraq bir daha bildiririk ki, vətəndaşlar işğaldan azad edilmiş ərazilərdə bərpa olunan və yenidən tikilən yaşayış məntəqələrinə köçürülmə ilə bağlı bütün məsələlərə dair məlumatı Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinə müraciət etməklə dəqiqləşdirə bilərlər" - Komitənin məlumatında qeyd edilib.

UNI-44_27 IYUI-QARA.qxd 12/14/2023 11:20 PM Page 7





# Hökumət bahalaşma ilə bağlı iclas keçirdi - Tapşırıqlar verildi

***14 dekabr tarixində Azərbaycan Respublikası Nazirlər Kabinetinin Aparat rəhbəri Rüfət Məmmədovun sədrliyi ilə keçirilən İşçi Qrupun iclasında 2023-cü ilin yanvar-noyabr aylarında istehlak bazarında qiymətlərin dəyişməsi, o cümlədən ərzaq və qeyri-ərzaq məhsulları, əhaliyə göstərilmiş ödənişli xidmətlər, ərzaq bazarında idxal olunan məhsulların qiymət indeksi, kənd təsərrüfatı məhsullarının istehsalçı qiyməti, Hökumətin Antiinflyasiya tədbirləri, habelə ötən iclasda aidiyyəti qurumlara verilmiş tapşırıqların icrası ətraflı müzakirə olunub.***

Qeyd olunub ki, Dövlət Statistika Komitəsinin son məlumatına görə 2023-cü ilin yanvar-noyabr aylarında orta illik inflyasiya birrəqəmli səviyyədə 9.4 faiz, illik inflyasiya 2.6 faiz təşkil etmişdir. BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının açıqladığı son məlumata görə noyabr ayında ərzaq qiymətləri indeksi son bir ildə 10.6% ucuzlaşmışdır. İnflyasiyanın dinamikası xarici amillərin və həyata keçirilən antiinflyasiya siyasətinin təsirləri ilə azalmışdır.

İclasda ərzaq məhsulları qrupunda ən çox qiymət artımı müşahidə edilən məhsullar üzrə bazar araşdırılması, istehsal qiymətləri ilə pərakəndə satış qiymətləri arasında fərqlərin yaranma səbəbləri, istehlak qiymətləri indeksinin hesablanmasında istifadə olunan təmsilçi məhsullar üzrə idxalda təmərküzləşmə səviyyəsi, kənd təsərrüfatı məhsullarının satışı və dərman vasitələri bazarında aparılan rəqabət təhlillərinin nəticələri, idxal və yerli istehsal məhsulu əsasında təchizat zənciri boyunca formalaşan xərclər və antiinflyasiya xarakterli pul siyasəti barədə İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti, Kənd Təsərrüfatı Nazirliyi, Səhiyyə Nazirliyi, Dövlət Gömrük Komitəsi və Mərkəzi Bank tərəfindən görülən işlərə dair məlumat verilib.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi tərəfindən "Qiymət İzləmə Tətbiqinin" əsas prinsiplərinə dair metodoloji çərçivə sənədi təqdim olunub və bu istiqamətdə aidiyyəti qurumların nümayəndələrindən ibarət işçi qrupun yaradılması məqsədəuyğun hesab olunub.

İclasın yekununda "İnflyasiya və qiymət monitorinqi" üzrə İşçi qrupun rəhbəri tərəfindən növbəti ildə də antiinflyasiya tədbirlərinin davam etdirilməsi, daxili bazarda sağlam rəqabət mühitinin təmin olunması, qiymətlərin monitorinqi və onun səbəblərinin araşdırılması, inflyasiyanın iqtisadi artım üçün məqbul səviyyəsinin təmin edilməsi istiqamətində zəruri işlərin görüləcəyi qeyd olunub. Rəqabət Məcəlləsinin qəbul olunmasının da bu proseslərə müsbət təkan verəcəyi bildirilib.

# "Azərbaycanda istənilən seçki üçün tam şərait var"

## Siyavuş Novruzov: "Otuz il bundan qabaq yaranmış partiyalar var idi ki, heç bir fəaliyyətlə məşğul olmurdular"

***Milli Məclisin Regional məsələlər komitəsinin sədri, deputat Siyavuş Novruzov "Unikal"a müsahibə verib. O, gələn il fevralın 7-də keçiriləcək növbədənkənar prezident seçkilərindən, bu seçkilərdən sonra referendumun keçirilməsi ehtimalından, parlamentdə deputatların sayının artırılmasından və başqa məsələlərdən danışıb.***

***-Siyavuş müəllim, gələn il fevralın 7-də Azərbaycanda növbədənkənar Prezident seçkiləri keçiriləcək. Növbədənkənar seçkiləri zəruri edən hansı amillər var?***

-İndiyə qədər Azərbaycanda bir neçə prezident, parlament, bələdiyyə seçkiləri keçirilib. Amma müstəqillikdən sonra Azərbaycanın bütün ərazisində bu seçkilər keçirilməyib. 44 günlük Vətən müharibəsindən və antiterror tədbirlərindən sonra ərazi bütövlüyümüz, suverenliyimiz bərpa olundu. İndi isə Azərbaycanın bütün ərazisində bu seçkilərin keçirilməsi nəzərdə tutulur. Həmçinin, bu Prezidentin səlahiyyətləri ilə bağlı olan məsələdir. Bu, özünəinamın, xalqın dəstəyinə əminliyin və digər məsələlərin bariz nümunəsidir. Qalib xalq kimi ilk dəfə növbədənkənar prezident seçkilərinin keçirilməsini nəzərdə tutmuşuq.

***-Prezident seçkilərindən sonra referendumun olacağı ilə bağlı fikirlər də səsləndirilir. Sizcə, prezident seçkilərinin ardınca referendum keçirilə bilərmi?***

-Referendum cənab Prezident və ya parlament tərəfindən çağırıla bilər. Bunun keçirilməsi üçün hər hansı zərurət ortaya çıxmalı, məsələlər müzakirə olunmalıdır. İctimaiyyət tərəfindən müxtəlif məsələlər müzakirə edilir. Belə ki, regional idarəetmədə, dövlət idarəçilik sistemində müəyyən dəyişikliklər, parlamentdə deputatların sayının artırılması və digər məsələlər müzakirə olunur. Bunlarla bağlı bildirmək istərdim ki, referenduma zərurət, ehtiyac yaranacaqsa, çağırıla bilər. Azərbaycanda azad, ədalətli, demokratik seçki keçirmək mühiti var. Eyni zamanda, hərtərəfli ictimai sabitlik mövcuddur. Ötən il "Siyasi partiyalar haqqında" qanun qəbul edildi və bundan sonra partiyaların yenidən qeydiyyatdan keçmək prosesi oldu. Otuz il bundan qabaq yaranmış partiyalar var idi ki, heç bir fəaliyyətlə məşğul olmurdular. Onlar bundan sonra fəaliyyət göstərə bilməyəcəklərini bilib özlərini buraxdılar. Hansı partiyalar ki, lazımi sənədləri təqdim etdilər şəffaf, sərbəst şəkildə qeydiyyatdan keçdilər. Bir neçəsi ilk mərhələdə 5000 imzanı toplayıb təqdim edə bilməmişdi və müxtəlif şantajlara da əl atdılar. Buna baxmayaraq, hansı partiya lazımi sənədləri təqdim edib müraciət ünvanlamışdısa, qeydiyyatdan keçdi. Azərbaycanda yeni siyasi sistem və münasibətlər mühiti formalaşıb. Bütün partiyalar üçün bərabər şərait yaradılıb və hər biri mənzil qərargahı ilə təmin olunub. Onların fəaliyyət göstərməsi üçün bütün şərait yaradılıb. Bu baxımdan, Azərbaycanda istənilən seçkilərin keçirilməsi üçün tam şərait var. O cümlədən qanunvericiliyə uyğun olaraq hər bir şəxs bu seçkilərdə iştirak edə bilər.

***-Məlum olduğu kimi, ölkəmizdə yeni idarəçilik modeli sınaqdan keçirilir. Söhbət prezidentin xüsusi nümayəndələrindən gedir. Dövlət başçısı çıxışı zamanı bildirib ki, bu, tamamilə yeni idarəçilik üsuludur və həmin müsbət təcrübə, ola bilsin, ölkənin qalan hissəsində də tətbiq edilsin. Seçkilərdən sonra digər ərazilərdə də prezidentin xüsusi nümayəndələrinin təyinatı gözlənilirmi?***

-İşğaldan azad olunan ərazilərdə və Naxçıvan Muxtar Respublikasında prezidentin səlahiyyətli nümayəndəsi fəaliyyət göstərir. Bu praktika özünü tam şəkildə yeni forma kimi təqdim edəcəksə, digər ərazilərdə də tətbiq oluna bilər. Bildiyiniz kimi, gələn il ölkəmizdə bələdiyyə seçkiləri olacaq. Bələdiyyələrin iş mexanizmində və digər məsələlərdə təkmilləşdirmə işlərinin aparılması gözlənilir. Ümumiyyətlə, regional idarəetmə sistemində mütəmadi olaraq yeniliklər tətbiq olunur və bu davam edəcək. Məlum olduğu kimi, Azərbaycanda 15 iqtisadi zona fəaliyyət göstərir. Buna uyğun şəkildə sistemin qurulması, nazirliklərin yerli idarələrinin regionallaşdırılması və s. istiqamətində addımlar atılır. Bunların praktikada özünü doğrultması gələcəkdə bütün respublika üzrə tətbiqinə gətirib çıxaracaq.

***-Parlamentdə deputat sayının artırılması müzakirə edilən məsələlərdəndir. Hazırda deputatların sayının artırılmasına ehtiyac varmı?***

-Bununla bağlı müxtəlif fikirlər var. Bəzi ölkələrdə deputatların sayı artırılır, bir çoxunda isə 200 ildir hansı saydırsa, o da qalıb. Baxsaq görərik ki, həmin ölkələrin də əhalisi artıb. Bununla bağlı müxtəlif yanaşma tərzi var. Məsələn, 1995-ci ildə Azərbaycanda əhalinin sayı 8 milyon idisə, hazırda 10 milyondan artıqdır. Burada təmsilçilik məsələsi artmalıdır kimi fikirlər səsləndirilir. Hazırda bir deputata hardasa 45 min seçici düşür. Bununla bağlı müxtəlif rəqəmlər də təklif olunur. Bu məsələlər hüquqi, siyasi, demoqrafik və regional cəhətdən əsaslandırılmalıdır. Əgər zərurət varsa, deputatların sayı artırılmalıdır. Parlamentin fəaliyyətini təhlil edəndə görürük ki, təmsilçilik normasını yerinə yetirir. Qəbul olunan qanunlara nəzər saldıqda görürük ki, vətəndaşlarımızın sosial müdafiəsi, iqtisadiyyatımız, müdafiə, təhlükəsizlik və digər məsələlərlə bağlı qanunlar qəbul olunur. Deputatların sayının artırılması referenduma çıxacaqsa, insanlar səs verib istəyəcəklərsə, bu məsələ öz həllini tapacaq.

***-Gündəmdə olan məsələlərdən biri də hərbi əsirlərimizin azad edilməsidir. Bu, iki ölkə arasında sülh müqaviləsinin imzalanması istiqamətində atılan müsbət addımlardan biri kimi dəyərləndirilir. Yaxın vaxtlarda sülh müqaviləsinin imzalanması istiqamətində başqa hansı addımların şahidi ola bilərik?***

-Sülh müqaviləsinin imzalanması istiqamətində bir neçə addım atılıb. Həmçinin, hərbçilərin qarşılıqlı şəkildə təhvil verilməsini də qeyd etmək olar. Bunlar xoşməramlı addımlardır. Eyni zamanda, Azərbaycan və Ermənistan XİN rəhbərləri, baş nazirlərin müavinləri arasında görüşlər olur, bir sıra məsələlərlə bağlı danışıqlar aparılır. Bunlar addım-addım sülhə doğru gedən yoldur. Biz vasitəçisiz də bu məsələni həll edə bilərik. Xüsusi olaraq qeyd edim ki, sülh müqaviləsinin imzalanması daha çox Ermənistana lazımdır. Eyni zamanda onlara iqtisadi böhrandan çıxmaq, demoqrafik vəziyyətlərinin düzəlməsi, yolların, kommunikasiya vasitələrinin bərpa olunması və digər məsələlər hava-su kimi lazımdır.

***Anar Kəlbiyev***



UNI-44_27 IYUI-QARA.qxd 12/14/2023 11:20 PM Page 8



# Bəzi iri məmurlar həyəcan içində...

## Növbədənkənar prezident seçkilərinin ardından qurulacaq yeni hökumətdə kimlər öz postlarını itirə bilər

***2024-ci ilin fevral ayının 7-də Azərbaycanda növbədənkənar prezident seçkiləri keçiriləcək. Seçkinin ardından isə yeni hökumət kabineti formalaşdırılacaq. Həmin kabinetdə indiki bəzi iri məmurların yer almayacağı gözlənilir. Məhz bu məqamın artıq indidən hökumət dəhlizlərində müəyyən həyəcan yaratdığını söyləmək mümkündür.***

Bəs növbədənkənar prezident seçkilərinin ardından formalaşdırılacaq yeni hökumət kabinetində indiki məmurlardan hansılar yer almaya bilər? Bu siyahıda ilk növbədə Baş nazir Əli Əsədovun adı hallanır. İddia olunur ki, tamamilə yeniləşəcək, eyni zamanda gəncləşdiriləcək təzə komandada köhnə məmur korpusunu təmsil edən Əsədovun Nazirlər Kabinetinə başçılıq etməsi real görünmür. Xatırladaq ki, gələn il o, 68 yaşına qədəm qoyacaq. Hazırkı Baş nazir son vaxtlar bir sıra qərarları ilə cəmiyyətdə ciddi narazılıqlara yol açıb. Xüsusilə onun qərarı ilə müəyyənləşdirilən parking qiymətlərinin hədsiz yüksək olması hətta bəzi deputatlar tərəfindən də dilə gətirilib. Bir sıra millət vəkilləri qiymətlərə yenidən baxılmasını tələb ediblər.



Baş nazirin birinci müavini Yaqub Eyyubovun da gələnilki növbədənkənar prezident seçkisinin ardından formalaşdırılacaq yeni hökumət kabinetində təmsil olunmayacağı gözlənilir. O, hazırda hökumətin ”köhnə eşəlon”undan qalan tək-tük yüksəkçinlilərdən biridir, üstəlik, 79 yaşına qədəm qoyur və indiki vəzifəsində artıq 20 ildən çoxdur ki, çalışır. ”Mövcud məmur eşelonunda belə vəzifəli şəxslər, demək olar, qalmayıb. Birinci vitse-premyerlə yaşıd olan yüksək post sahiblərinin çoxu artıq bir müddətdir ki, təqaüddədir” deyən mənbələr onun Azərbaycana səfər edən xarici dövlət və hökumət başçılarının hava limanında qarşılanmasından qeyri funksionallığının da gözə dəymədiyini vurğulayırlar. Bundan başqa, Eyyubovun adı son zamanlar Rusiya, Avropanın bəzi ölkələri və Kanadadakı biznesi ilə gündəmə gəlir. Sadalananlar onun da vəzifəsi ilə vidalaşa biləcəyinə dair məlumatların reallaşma ehtimalını qüvvətləndirir.

Baş nazirin müavinlərindən 71 yaşlı Əli Əhmədovun da yeni hökumət kabinetinin üzvləri arasında olmayacağı deyilir.

Hazırkı Maliyyə naziri Samir Şərifovun da növbədənkənar prezident seçkilərindən sonra vəzifəsi ilə vidalaşma ehtimalı böyükdür. Əslində hələ 2018-ci ildə keçirilən prezident seçkiləri ərəfəsində də onun yeni formalaşdırılacaq hökumət komandasında yer almayacağı iddia edilirdi. Həmin vaxt bildirilirdi ki, baş maliyyəçinin mövqelərini laxladan əsas amil Beynəlxalq Bank olaydır. Bu bankdan on milyardlarla manatın mənimsənilməsi üzə çıxan ilk dövrdə bütün günahlar İdarə Heyətinə rəhbərlik etmiş Cahangir Hacıyevin üzərinə yükləndi. Beləliklə də S.Şərifov Beynəlxalq Bankdakı prosesləri nəzarətdə saxlamalı olan əsas fiqur olaraq cəzadan yayına bildi. Lakin vaxt keçdikcə Beynəlxalq Bankdakı neqativ proseslər dayanmadı, bankın S.Şərifovun adamı kimi tanınan rəhbəri Elmar Məmmədovun dolların ”qara bazarı”na rəhbərlik etdiyi aydınlaşdı. Maliyyə naziri bu dəfə də E.Məmmədovu qurban verməklə yaxasını kənara çəkməyi bacardı. Lakin hətta bundan sonra da Beynəlxalq Bankın problemləri azalmadı, üstəlik, onun ”Aqrarkredit”ə ötürülmüş aktivləri ilə bağlı problemlər meydana çıxmağa başladı. Bu dəfə S.Şərifov özünü kənarda saxlaya bilmədi: Beynəlxalq Banka nəzarət faktiki olaraq onun əlindən alınıb, Dövlət Neft Fondunun İcraçı direktoruna verildi. Beləcə bankın beynəlxalq aləmdə təmiz reputasiyaya malik bir qurumun nəzarətinə verilməsi təmin edilmiş oldu. Bu, eyni zamanda S.Şərifova olan inamın minimuma endiyinin göstəricisi kimi qiymətləndirilirdi. Lakin iddiaların əksinə olaraq nazir öz postunu qoruyub saxlamağı bacardı. Hərçənd, onun bu dəfə - gələn ilin fevralındakı növbədənkənar prezident seçkilərinin ardınca formalaşdırılacaq yeni hökumətin tərkibində olmayacağına dair qənaət daha möhkəmdir.

Maliyyə nazirindən başqa Fövqəladə Hallar naziri Kəmaləddin Heydərovun da vəzifəsi ilə vidalaşacağına dair gözləntilər çoxdur. O, hakimiyyət komandasında “köhnə eşalonu” təmsil edən tək-tük vəzifə sahiblərindən biridir, eyni zamanda həmin eşalonun hələ də postunu qoruyub-saxlayan aparıcı simalarındandır. 63 yaşlı Heydərov artıq 17 ildir hazırkı vəzifəsini yerinə yetirir. Bundan əvvəl isə o, 11 il boyunca Dövlət Gömrük Komitəsinin sədri olub.

Növbədənkənar prezident seçkilərinin ardınca formalaşdırılacaq yeni hökumətdə indiki Ədliyyə naziri Fikrət Məmmədovun, Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyevin, Dövlət Sərhəd Xidmətinin rəisi Elçin Quliyevin və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin gələn il 70 yaşına qədəm qoyacaq sədri Mübariz Qurbanlının da yer almayacağına dair iddialar dolaşır.

Yuxarıda deyilənlərin nə qədər gerçəkləşib-gerçəkləşməyəceyini isə zaman göstərəcək.

***Toğrul Əliyev***

# YAP prezidentliyə namizədini elan etmək üçün toplaşacaq




***Bu gün Yeni Azərbaycan Partiyası İdarə Heyətinin iclası keçiriləcək.***

”Unikal” xəbər verir ki, Heydər Əliyev Mərkəzində keçiriləcək iclas saat 10:00-da başlayacaq.

İclasda fevralın 7-ə təyin edilmiş növbədənkənar prezident seçkilərində hakim partiyanın namizədinin müəyyən edilməsi gözlənilir.

# İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyində yoxlama aparılır

***Hesablama Palatası İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyində yoxlama aparır.***




”Unikal” xəbər verir ki, audit yoxlaması dövlət satınalmaları ilə bağlıdır.

Qeyd edək ki, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin sədri Zaur Əliyevdir.

# Baş Qərargah rəisi Qazaxıstanlı generalla görüşdü



***Müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev ölkəmizdə işgüzar səfərdə olan Qazaxıstan Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisinin müavini - Əməliyyat Planlaşdırılması Departamentinin rəisi general-mayor Marat Aymaşevin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.***

Müdafiə Nazirliyindən “Unikal”a verilən xəbərə görə, nümayəndə heyəti əvvəlcə Şəhidlər xiyabanına gələrək ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəman Vətən övladlarının məzarlarını ziyarət edib, üzərinə gül dəstələri düzüb, xatirələrinə ehtiram nümayiş etdirib.

General-polkovnik K.Vəliyev qonaqları salamlayaraq onları ölkəmizdə görməkdən məmnun olduğunu bildirib. Azərbaycan və Qazaxıstan arasında ikitərəfli hərbi əməkdaşlığın dostluq və qardaşlıq münasibətləri üzərində qurulduğunu qeyd edib. Bu cür görüşlərin hərbi əməkdaşlığın genişləndirilməsi baxımından zəruriliyi xüsusi vurğulanıb.

Səmimi qəbula və göstərilən qonaqpərvərliyə görə minnətdarlığını bildirən general-mayor M.Aymaşev qarşılıqlı təcrübə mübadiləsinin vacibliyini diqqətə çatdırıb.

Görüşdə ölkələrimiz arasında hərbi əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivləri, eləcə də qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər müzakirə edilib.

Qazaxıstanlı nümayəndə heyəti daha sonra Əməliyyat Baş İdarəsinə gəlib. Baş idarə rəisi general-leytenant Azər Əliyevlə keçirilən görüşdə hərbi və hərbi təhsil sahələrində əməkdaşlığa, o cümlədən 2024-cü il ərzində birgə təlimlərin keçirilməsinə dair geniş fikir mübadiləsi aparılıb.

Sonda Müdafiə Nazirliyinin və Hərbi Hava Qüvvələrinin Mərkəzi Komanda məntəqələrinə, Milli Müdafiə Universitetinin Hərbi İdarəetmə İnstitutunun Hərb Oyunları Mərkəzinə gələn qonaqlara buranın əsas fəaliyyət istiqamətləri, imkan və qabiliyyətləri barədə ətraflı məlumatlar verilib.

UNI-44_27 IYUI-QARA.qxd 12/14/2023 11:20 PM Page 9






# İcbari sığortaya ən çox hansı xəstəliklər üçün müraciət edilir? - Zaur Əliyev açıqladı

***Dekabrın 14-də İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin (Agentlik) İdarə Heyətinin sədri Zaur Əliyev Agentliyin illik fəaliyyəti və strateji hədəfləri mövzusunda mətbuat konfransı keçirib.***

"Unikal"ın məlumatına görə, Zaur Əliyev bildirib ki, icbari tibbi sığortanın bütün ölkə üzrə tətbiqinin 3-cü ilinə yaxınlaşırıq. Əhalinin tibbi xidmətlərə əlçatanlığının artırılması məqsədilə Agentlik tərəfindən davamlı tədbirlər görülür.

Göstəricilər onu deməyə əsas verir ki, ildən-ilə vətəndaşların sığortadan istifadəsi artan xəttlə davam edir. Ötən illə nisbətdə xidmət sayında bu ilin 10 ayı ərzində 30% artım müşahidə olunub. (ambulator tibbi xidmət - 87% , stasionar tibbi xidmət - 13%)

1 pasiyentə düşən xidmət sayında və 1 pasiyentə düşən müraciət sayında müvafiq olaraq 1.5 və 1.1 dəfə artım olub.

Ən çox müraciət edilən xəstəliklər sırasında ilk yerdə ümumi tibbi müayinə gəlir ki, bu da həkim baxışı, qəbuludur. Daha sonra endokrin sistemin xəstəlikləri, maddələr mübadiləsi və qidalanma pozuntuları, tənəffüs sistemi xəstəlikləri və qan dövranı sistemi xəstəlikləri.

Cari ildə göstərilən tibbi xidmətlərin 59%-i regionların payına düşüb. Bu ilin yanvar-oktyabr aylarında 4,5 milyon şəxs icbari tibbi sığorta çərçivəsində tibbi xidmət alıb. Bu o deməkdir ki, ölkə əhalisinin 47%-i icbari tibbi sığortadan yararlanıb. İlin sonuna pasiyent sayının daha da artacağı məlum məsələdir.

İcbari Tibbi Sığortanın Xidmətlər Zərfi ilə ölkədə geniş yayılmış, əlillik və ölüm riski yüksək olan xəstəliklərin stasionar şəraitdə cərrahi müalicəsi qarşılanır. Bunu İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin sədri Zaur Əliyev bildirib. O qeyd edib ki, dövlət tibb müəssisələrində icra olunan əməliyyat və prosedurların sayında illər üzrə artım müşahidə edilir: "Nəzərə alınmalıdır ki, bu, 2023-cü il üzrə göstərici noyabr ayınadək olan statistikadır. Belə ki, bu il 358 772 əməliyyat və prosedur həyata keçirilib.Tibb müəssisələri tərəfindən stasionarda cərrahi profil üzrə məlumatların elektron reyestrdə qeydiyyatı və emalı davam edir. Əməliyyatların 74%-i planlı əməliyyatların payına düşüb. Ən çox icra olunan əməliyyatlar: ginekoloji, gözdə və ürək-damar sistemində aparılanlar olub. Əməliyyatların ən çox icra edildiyi tibb müəssisələri sırasında ilk yerdə Kliniki Tibbi Mərkəz dayanır. Göstəricilər vətəndaşlara lazım olan əməliyyatların dövlət xəstəxanalarında icrası görülən tədbirlər nəticəsində mümkün olduğunu deməyə əsas verir. Biz buna çalışırıq".

## Sığorta ödənişinə görə əlavə ailədəki bütün uşaqlara şamil ediləcək

***"Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sonuncu iclasında "İşsizlikdən sığorta haqqında" qanuna ediləcək dəyişikliklər müzakirə edilib. Təklif olunan dəyişikliklərə əsasən, sığorta ödənişinə görə əlavə ailədəki bütün uşaqlara şamil ediləcək".***

"Unikal" xəbər verir ki, bunu deputat Vüqar Bayramov deyib. Onun sözlərinə görə, hər uşaq üçün əlavə 5 faiz ödənilir: "İndi bu əlavələr 20 faiz ilə məhdudlaşır. Yeni dəyişikliklər ilə isə məhdudlaşma olmayacaq. Bu zaman həmin ödəniş müddətli əmək müqaviləsinin bitməsi ilə xitam hallarına da şamil ediləcək. Müzakirələr zamanı təklif etdim ki, ailədə əlilliyi olan uşaqlar üçün daha yüksək əlavələr ödənilsin. Ailədə əlilliy olan uşaq varsa, ailə başçısına işsizlikdən sığorta təyin edilirsə, o zaman əlavə 5 faiz deyil, 10 faiz hesablanması daha məqsədəuyğun olardı. Bu imkan verər ki, ailələrə ödənilən sığorta məbləği daha yüksək olsun. Bu həmin ailələrin sosial təminatının daha da gücləndirilməsi baxımından vacibdir. Qeyd edim ki, təklifin qanunvericilikdə öz əksini tapması üçün müvfiq dövlət qurumları ilə müzakirələr davam etdiriləcək".

# Oliqarxların "2024 soyğunçuluğu"...

## Yeni il ərəfəsində hotellərdəki fantastik qiymətlərin pərdəarxası... - Bir günə yüzlərlə manatı sadə vətəndaş necə ödəsin?!



***2024-cü ilin gəlişinə, Yeni il bayramına bir ay qalıb. Hər dəfə olduğu kimi, bu dəfə də Azərbaycanın turizm sektoru bayrama "xüsusi" hazırlaşır. Məsələ burasındadır ki, həm paytaxtda, həm də regionlarda dekabr ayının son, yanvar ayının isə ilk günlərinə hotellərin bron edilməsinə başlanılıb. Potensial müştərilərə hotel nömrələri ilə yanaşı, həm də turpaketlər təklif olunur. Lakin...***

Lakin qiymətlər az bir qismin cibinə uyğundur.

Konkret faktlara göz ataq: "Marxal Resort& Spa"dan bildirilib ki, hoteldə bayram günü üçün minimum iki gecəlik paket satılır. Buraya səhər və axşam yeməyi və qala gecə daxildir. İki nəfər üçün qiymət 1490 manat təşkil edir.

Qəbələdə məşhur hotellərin çoxunda da qiymətlər "ceyran belindədir". "Qəbələ"Hotellər Qrupundan bildiriblər ki, "Gabala Tufandag City Hotel"də bayram gününə yer bron etmək mümkün deyil; həmin hotel üçün paketlər satılıb. Yalnız Tufandağda VİP kotec qalıb ki, onun da qiyməti 3590 manat təşkil edir. Buraya səhər yeməyi və Yeni il gecəsi şam yeməyi daxildir.

"Qafqaz Riverside Hotel"də isə iki nəfər üçün iki gecə üç gün üçün qiymət 1426 manat müəyyən olunub. Buraya dekabrın 31-i günü üçün şou proqram, səhər yeməyi daxildir. Ötən il hoteldə yeni il ərəfəsi qiymət 1346 manat olub.

"Qafqaz Resort Hotel" də isə bir gecə gecələmək 375 manatdır. Əgər bayram şousu da daxil edilərsə, bunun üçün bir müştəri 300 manat ödəməlidir. Burada koteclərdə qiymət bayram günlərində iki gecə üçün səhər yeməyi daxil 750 manatdır.

Qubanın Əski İqrıq Kəndində yerləşən "Quba Palace Hotel"də dekabrın 31-də giriş, yanvarın 2-də çıxış üçün iki nəfərlik yerlər 2200 manatdır. Buraya səhər və axşam yeməkləri, qala gecə daxildir.

Qusar rayonunda yerləşən "Şahdağ Hotel & Spa" hoteldə dekabrın 30-dan yanvarın 2-dək qiymətlər 1860 manatdır. "Zirvə hotel" də qiymətlər eynidir. Yeri gəlmişkən, ötən il bayram günlərində bu hotellərdə üç günlük istirahət iki nəfər üçün 1710 manatdan başlayırdı.

"Şahdağ" və "Zirvə" hotellərində bayram günlərində ancaq qış idman növləri əyləncəsi üçün bu məkanı ziyarət edənlər elə girişdəcə adambaşına 42 manat ödəməlidirlər. Qarda sürüşmək üçün yeni başlayanlar üçün avadanlıqların (dəbilqə, xizək çubuğu, xizək ayaqqabısı, gödəkcə, şalvar,dolab) icarə qiyməti isə 96-100 manatdan başlayır.

"Lankaran Springs Wellness Resort"da dekabrın 31-də giriş, yanvarın 2 -i çıxış iki nəfər üçün Yeni il istirahəti 1399 manatdır. Buraya üç dəfə qidalanma və qala gecə daxildir.

"Qalatlı Hotel& Spa"-da yeni ili mənzərəsiz otaqda qarşılayanlar 1420, mənzərəli otaqda qarşılayanlar 1480 manat ödəməlidir. Buraya üç dəfə qidalanma və bayram şənliyi daxildir.

Qax rayonunda yerləşən "El Resort" hoteldə iki gecəlik bayram paketləri 799 manatdan başlayır. Qiymətə qala, şam yeməyi, növbəti gün üçün səhər və şam yeməyi daxildir.

"Şəki Park Hotel"də bayram günlərində gecələmək üçün boş yer qalmayıb. Yeni il şənliyini bu istirahət mərkəzində keçirmək istəyənlər bir nəfər üçün 100 manat ödəməlidirlər.

"Qabala Garden Hotel" də isə bayram günləri üçün iki gecəlik, iki nəfərlik bron qiymətləri 960 manatdır. Buraya qala gecə, səhər yeməyi və canlı musiqi daxildir.

"İsmayıllı Resort Hotel"də bayram günündə iki nəfərin iki gecəlik istirahəti 500 manatdır. Buraya qala gecəsi, şam yeməyi daxildir. Hotel bir nəfərlik, bir günlük sifarişləri qəbul etmir.

Yuxarıdakı rəqəmlərdən aydın görünür ki, orta statistik azərbaycanlının cibi ölkənin qış turizmi baxımından cəlbedici bölgələrində Yeni ili qarşılamaq baxımından uyğun deyil. Üstəlik, müəyyənləşdirilən qiymətlər hətta xarici turistləri cəzb etmək nöqteyi-nəzərindən də ağlabatan görünmür. Bir sözlə, Yeni ildə hotellərdə, istirahət məkanlarında qiymətlər bayramı fərqli keçirmək istəyində olanlar üçün yenə əlçatan deyil. Əhalinin böyük hissəsindən ötrü bu, xam-xəyala bənzəyir.

Doğrudanmı, ölkədəki hotel və istirahət mərkəzi sahiblərinin real gəlirlərdən xəbəri yoxdur? Əks təqdirdə müəyyənləşdirilən qiymətlər nəyə əsasən hesablanıb? Bəlkə, belə hesab edirlər ki, orta statistik azərbaycanlı zəhmət çəkib evində, dörd divar arasında Yeni ili qarşılasın?

O zaman haqlı olaraq sual yaranır: Azərbaycanda turizmin inkişafı ilə bağlı gözləntilərə nə ehtiyac var?! Bir halda ki, bütün hesablamalar yalnız məhdud bir çevrənin maddi imkanlarına uyğun aparılır, belə gözləntilərin reallaşması xam-xəyal deyilsə, bəs nədir?!

***Sənan Mirzə***

UNI-44_27 IYUI-QARA.qxd 12/14/2023 11:20 PM Page 10



# Tahir Kərimov xaricdəki biznesini böyüdür

## Sabiqlərin izi ilə: keçmiş icra başçısı hazırda nə işlə məşğuldur?

***"Unikal" qəzeti bu sayından etibarən keçmiş məmurların hazırda harada və nə işlə məşğul olduqları barədə silsilə yazıların dərcinə başlayır. "Sabiqlərin izi ilə" adlandırdığımız həmin silsilədən ilk belə məqaləmiz sonuncu dəfə Salyan Rayon İcra Hakimiyyətinin başçısı olmuş Tahir Kərimov haqqındadır.***

62 yaşlı T.Kərimov öncə Daşkəsən Rayon İcra Hakimiyyətinin başçısı (2006-2011), Salyan Rayon İcra Hakimiyyətinin başçısı (2011-2016) postlarını tutub. Onun 10 illik icra başçısı karyerası 2003-2006-cı illərdə tutduğu H. Z. Tağıyev adına Balıqhisləmə zavodunda direktor və idarə heyətinin sədri vəzifələrinin ardınca start götürmüşdü. Lakin 7 il öncə onun bu karyerası başa çatdı. Əslində həmin vaxt 55 yaşında olan T.Kərimovun Salyanda hələ uzun müddət rayon rəhbəri olacağını gözləmək olardı. Ən azından başqa bir rayona icra başçısı təyinatı ala bilərdi.



Lakin sabiq məmurun fəaliyyətində yol verdiyi ciddi nöqsanlar onun vəzifə karyerasını erkən sonlandırdı. Belə ki, 2015-ci ilin avqustunda Tahir Kərimovun məktəblilərin tutduğu qızılgüllərin altından keçərkən çəkilmiş fotoları yayıldı. Həmin fotolar 2014-cü ildə keçirilən Gül bayramında çəkilsə də, sosial şəbəkələrdə yalnız bir müddət öncə geniş müzakirə olunmuş, icra başçısının qeyri-təvazökarlığı qınanmışdı. T.Kərimov isə adı ətrafındakı qalmqala belə münasibət bildirmişdi: "Bəzi insanlar bu fotodan sui-istifadə etməyə çalışır. Məni istəyən-istəməyən, hamısı nə gəldi danışır. Həmin foto 2014-cü ilin may ayında çəkilib. Təhsil şöbəsinin hazırladığı kompozisiyadır və oradakılar da məktəbli uşaqlardır. Burda böyüdüləsi bir şey yoxdur".

Sabiq başçı postunu tərk etdikdən sonra isə ölkə.az saytı yazmışdı ki, son vaxtlar Salyanda fəaliyyət göstərən sahibkarların və xarici şirkət rəhbərlərinin Tahir Kərimova qarşı narazılıqlarının artması ölkə rəhbərliyinə çatdırılıb. Şikayət edənlər arasında "Salyan Oil Ltd" əməliyyat şirkətinin yeni təyin olunan baş meneceri Şan Lian Jenq və Çinin Milli Neft Korporasiyasının vitse-prezidenti də olub. Belə ki, Çinin Milli Neft Korporasiyasının vitse-prezidenti bu yaxınlarda Azərbaycanda səfərdə olarkən rəsmi görüşlərdə iştirak zamanı Salyan rayon İcra Hakimiyyətinin başçısı Tahir Kərimova qarşı olan narazılıqlarını dilə gətirib. Bildirib ki, baş meneceri olduğu şirkətin Salyanda sərbəst fəaliyyətinə əngəllər yaradılır, hətta rayonda məktəb və uşaq baxçalarının tikintisi, asfalt yolların çəkilməsi və digər bu kimi işlərin görülməsi ilə bağlı "Salyan Oil Ltd" şirkəti qarşısında tələb irəli sürülür.

Bundan başqa, sabiq başçının Daşkəsən və Salyana rəhbərlik etdiyi dövrdə sürətlə varlandığı, oliqarxa çevrildiyi də aydınlaşmışdı.

Bütün bu sadalananlar ona gətirib çıxardı ki, T.Kərimov postundan kənarlaşdırıldı.

O hələ də işsizdir və deyilənə görə xüsusilə xaricdəki biznesinin idarə olunması ilə məşğuldur. Eks-başçının ilin böyük hissəsini ölkə kənarında keçirdiyi də iddialar arasındadır.

2017-ci ilin avqustunda ölkə mediası Salyanın keçmiş rəhbərinin Azərbaycanı tərk etdiyi barədə məlumat yayıb. Onun Türkiyədəki evinə köçdüyü, hətta Azərbaycandan birdəfəlik getdiyi və biznesini də xaricə köçürdüyü iddia olunub. "Bu məqsədlə Tahir Kərimov Azərbaycandakı ev və digər daşınmaz əmlakları satışa çıxarıb" deyə yerli KİV yazırdı. Həmin vaxt bu barədə sabiq başçı ilə əlaqə saxladıqda onun hazırda Azərbaycanda olmadığını təsdiqlədiyi və telefonu dərhal söndürdüyü də xəbər verilmişdi. .

Bildirilir ki, Birləşmiş Krallığın registr məlumatlarında Tahir Kərimovun özünün və övladlarının adına xeyli sayda şirkətlər və daşınmaz əmlak var. Ölkə mediasının müxtəlif vaxtlardakı araşdırmaları nəticəsində sabiq başçının oğlu Tural Kərimov və qızı Aynur Kərimovanın adına şirkətlər müəyyən edilib. Xüsusilə, Tural Kərimovun adına 3 fərqli şirkət var. Bunlardan biri "Premium Horions Limited" adlı şirkətdir. Bu şirkət 2013-cü ildə təsis edilib və şirkəti Kərimov övladları arasında "ata malı" kimi bölüb. Həm Tural Kərimov, həm də Aynur Kərimova şirkətin hissədarlarıdır.

Bundan sonra isə Tural Kərimova məxsus " Kıevan Accountants LTD" və "Kerimov Holdings LTD" şirkətləri təsis edilib. Hər üç şirkət eyni ünvanda Solar House adlı bir ofis mərkəzində qeydiyyatdadır.

Yerli media onu da yazıb ki, "Esperto Espresso Limited" adlı şirkət də 2018-ci ildə məhz Tural Kərimov tərəfindən təsis edilib. Şirkət "Natural Coffee" adı altında Londonda yerləşən "136- 138, Kentish Town Road" ünvanında yerləşir. Şirkətdə kofe və orqanik qida satışını həyata keçirən Kərimovların bu mülkünün dəyəri 1,323,000 funtsterlinqdir.

Sabiq başçının övladlarının qeydiyyatda olduğu Flat 22, Priestley Court, Princes Gate, High Wycombe, Buckinghamshire HP13 7WZ ünvanındakı ev 2017-ci ilin 11 sentyabr tarixində 240,000 funtsterlinqə satın alınıb.

Qeyd edək ki, sabiq başçı Azərbaycan mediasında dəbdəbəli imarətlər, bahalı maşınlar sahibi, ən əsası, balıq ovçusu kimi qələmə verilib.

T.Kərimov isə indiyədək özü və ailə üzvlərinin xaricdəki biznesi, eləcə də əmlakları barədə çoxsaylı iddialara cavab verməyib.

***Toğrul Əliyev***

# Azərbaycanda hərbçilərə bəzi güzəştlər ediləcək



***Prezident İlham Əliyev gənclərin hərbi sahədə təhsil almasının təşviq edilməsi ilə bağlı tədbirlər haqqında Fərman imzalayıb.***

"Unikal" xəbər verir ki, fərmanda deyilir:

"Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti peşəkar gizir heyətinin hazırlanması məqsədilə Bakı, Gəncə şəhərlərində və Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Müdafiə Nazirliyinin strukturuna daxil olan Milli Müdafiə Universitetinin tabeliyində 3 xüsusi təyinatlı hərbi kolleci (bundan sonra - hərbi kollec) üç ay müddətində yaratsın və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

2. 2024-2025-ci tədris ilindən başlayaraq təhsil almaq üçün Azərbaycan Respublikası Müdafiə Nazirliyinin strukturuna daxil olan Milli Müdafiə Universitetinin tabeliyindəki ali təhsil müəssisəsinin bakalavriat səviyyəsinə, o cümlədən bakalavriat səviyyəsinin hazırlıq kursuna (bundan sonra - ali təhsil müəssisəsi) və hərbi kolleclərə qəbul olunmuş kursantlar üçün 500 (beş yüz) manat, hərbi liseylərə qəbul olunmuş kursantlar üçün 300 (üç yüz) manat məbləğində birdəfəlik ödəmə təsis edilsin.

3. 2024-2025-ci tədris ilindən başlayaraq bu Fərmanın 2-ci hissəsində nəzərdə tutulan təhsil müəssisələrində təhsil alan kursantlar üçün təhsil müddətində aşağıdakı aylıq ödəmələr təsis edilsin:

3.1. ali təhsil müəssisəsi üzrə:

3.1.1. 150 (yüz əlli) manat məbləğində təqaüd;

3.1.2. 200 (iki yüz) manat məbləğində ailə üzvlərinə maddi yardım;

3.1.3. 200 (iki yüz) manat məbləğində hesabda yığılan ödəniş;

3.2. hərbi kolleclər üzrə:

3.2.1. 100 (yüz) manat məbləğində təqaüd;

3.2.2. 200 (iki yüz) manat məbləğində ailə üzvlərinə maddi yardım;

3.2.3. 150 (yüz əlli) manat məbləğində hesabda yığılan ödəniş;

3.3. hərbi liseylər üzrə:

3.3.1. 50 (əlli) manat məbləğində təqaüd;

3.3.2. 100 (yüz) manat məbləğində ailə üzvlərinə maddi yardım;

3.3.3. 100 (yüz) manat məbləğində hesabda yığılan ödəniş.

4. 2024-2025-ci tədris ilindən başlayaraq ali təhsil müəssisəsinə və hərbi kolleclərə daxil olan kursantlar həmin təhsil müəssisələrindən məzun olaraq Azərbaycan Ordusunda 5 təqvim ili zabit və ya gizir kimi həqiqi hərbi xidmət keçdikdən sonra yaşayış sahəsinin alınması üçün Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun vəsaiti hesabına güzəştli ipoteka kreditindən istifadə etdikdə müvafiq yaşayış sahəsinin qiymətinin 15 faizədək olan hissəsi dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilsin.

Azərbaycan Respublikasının Nazirlər Kabineti üç ay müddətində:

"Gənclərin Azərbaycan Respublikası Müdafiə Nazirliyinin xüsusi təyinatlı təhsil müəssisələrində təhsil almalarına dair 2024-2033-cü illər üçün Tədbirlər Planı"nın layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

-ödəmələrin verilməsi, vəsaitlərin hesablarda yerləşdirilməsi və idarə edilməsi, habelə hesabda yığılan vəsaitin idarə olunmasından əldə edilən gəlirlər də daxil olmaqla həmin vəsaitlərin ödənilməsi qaydasını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

- bu Fərmanın 4-cü hissəsinə uyğun olaraq güzəştli ipoteka krediti üzrə yaşayış sahəsinin qiymətinin 15 faizədək olan hissəsinin maliyyələşdirilməsi, habelə güzəştli ipoteka kreditinin bir hissəsinin ödənilməsinə dövlət tərəfindən maliyyə dəstəyi göstərilməsi ilə bağlı təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

- bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

- Azərbaycan Respublikasının Müdafiə Nazirliyi:

- bu Fərmanın 2-4-cü hissələrində nəzərdə tutulan ödəmələrin maliyyələşdirilməsi məqsədilə tələb olunan vəsaitə dair təkliflərini müvafiq illərin dövlət büdcəsində nəzərdə tutulması üçün Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim etsin;

- bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

- Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Fərmanın 6-cı hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin".

UNI-44_27 IYUI-QARA.qxd 12/14/2023 11:20 PM Page 11





# Azərbaycanın Milli Qəhrəmanı Əliyar Əliyevin doğum günüdür

***14 dekabr Azərbaycanın Milli Qəhrəmanı Əliyar Əliyevin doğum günüdür.***

”Unikal” xəbər verir ki, Əliyar Əliyev 1957-ci il dekabrın 14-də Qubadlı rayonunun Qəzyan kəndində anadan olub. 1979-cu ildə Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunu fərqlənmə diplomu ilə bitirərək, bir müddət Qubadlı rayonunun Dondarlı kənd orta məktəbində idman müəllimi işləyib.

Milli Qəhrəmanımız yunan-Roma güləşi üzrə dəfələrlə respublika çempionu, ümumittifaq və beynəlxalq yarışların qalibi olub. Onun rəhbərliyi ilə yetişmiş səkkiz nəfər respublika və SSRİ çempionu olub.

Qarabağ müharibəsi başlayanda Əliyar Əliyev könüllü olaraq Azərbaycan Silahlı Qüvvələrinin sırasına qoşulub. Əvvəlcə taborun kəşfiyyat bölməsinin komandiri, sonra tabor komandirinin təchizat üzrə müavini təyin edilib.

1992-ci il sentyabrın 30-da Laçın rayonu istiqamətində döyüşə rəhbərlik edib.

O, həmin ilin payızında 40 könüllü döyüşçü ilə birlikdə işğal altındakı Laçının 40-a qədər kəndini dörd gün ərzində ermənilərdən azad edib.

Milli Qəhrəmanın son döyüşü 1992-ci il oktyabrın 3-də Laçının iki kilometrliyində olub.

Tikanlı zəmi yüksəkliyi uğrunda döyüşdə tabor komandiri Əliyar Əliyev və onun sürücüsü Əlisadət Ağayev qəhrəmancasına şəhid olublar. O, Qubadlı rayonunun Qəzyan kəndində dəfn olunub.

Qubadlı şəhəri 25 oktyabr 2020-ci il tarixində işğaldan azad olunur. Digər işğal altında olan torpaqlarımızla birlikdə Qubadlı da düşmən tapdağından azad edildikdən sonra Milli Qəhrəmanımızın qəbri bərpa olunub. Qəbirdaşı hazırlanaraq ətrafı səliqəyə salınıb.

# Vətən müharibəsi qazisi vəfat etdi



***Vətən müharibəsi qazisi, Siyəzən rayon sakini Sənan Rəhimov qəfildən vəfat edib.***

”Unikal” xəbər verir ki, bu barədə sosial şəbəkədə məlumat paylaşılıb. Mərhumun yaxın günlərdə toyu olacaqdı.

Qeyd edək ki, S.Rəhimov Vətən müharibəsindən sonra bir neçə medalla təltif olunub.

# Bu il Şuşaya səfər edən turistlərin sayı açıqlandı

***Bu il Şuşaya 1000-dən çox turistin səfəri və gecələməsi təşkil olunub.***




”Unikal” xəbər verir ki, bunu Dövlət Turizm Agentliyinin Mədəni irs və regional turizm şöbəsinin müdiri Elgün Cavadov deyib.

O bildirib ki, gələcəkdə bunun artırılması, əlavə turizm məhsullarının yaradılması nəzərdə tutulub.

**ELAN**

Bakı Slavyan Universitetinin Filologiya fakültəsinin Azərbaycan dili və ədəbiyyat müəllimliyi ixtisası üzrə təhsil alan III tədris ili tələbəsi İsmayılova Nisəxanım Mahir qızına məxsus tələbə bileti itdiyi üçün etibarsız sayılır.

# Kardiologiya İnstitutunda "sular durulmur"

## İnstitutun direktoru ilə bəzi həkimlər arasında nə baş verir?

***Bu ilin əvvəlində Səhiyyə Nazirliyinin Akademik C.Abdullayev adına Elmi-Tədqiqat Kardiologiya İnstitutu daxilində başlayan narazılıqlar səngimir. Belə ki, institutun baş direktoru Gülnaz Dadaşova ilə bəzi həkimlər arasında ixtilaf yaranıb. Aylardan bəridir davam edən ixtilaf hələ də davam edir.***

Ötən ayın sonlarında institutun direktoru Gülnaz Dadaşovanın 20 ilə yaxın infarkt şöbəsinə rəhbərlik etmiş tibb elmləri doktoru, professor Elman Ələkbərovu Elmi Şura üzvlüyündən çıxarması səbəb olub. Bakupost.az -ın əldə etdiyi məlumata görə, Elmi Şuradan iclasına qatılmaq üçün İnstituta gələn professor gözlənilməz situasiya ilə qarşılaşıb. İclas zalına daxil olarkən, İnstitutun işçiləri ona ”Sizin adınız siyahıda yoxdur” deyiblər. E.Ələkbərov bunun səbəbi ilə maraqlananda İnstitutun direktoru ona Elmi Şura üzvlüyündən uzaqlaşdırıldığını bildirib. ”Məni üzvlükdən çıxarmısınızsa, onda niyə xəbər etməmisiniz, niyə mən səsvermədə olmamışam?” deyə soruşduqda isə Gülnaz Dadaşova bunu professorun mətbuata tənqidi müsahibəsi ilə izah edib. Onun bu cavabına, həmçinin Elmi Şuradan prosedura zidd və qanunsuz şəkildə uzaqlaşdırılmasına əsəbiləşən E.Ələkbərov ”Mən onsuz da sənin rəhbərliyin altında işləməyi öz səviyyəmə yaraşdırmırdım, ona görə də İnstitutdan getdim. Sən anestezioloqsan, necə kardioloq olduğun bəlli deyil, professorsan, necə müdafiə etdiyin bəlli deyil, idarətməni, işçilərlə necə davranmağı da bilmirsən” deyərək İnstitutu tərk edib.



Məlumatlara görə, bütün bunlar Elmi Şuranın iclas zalında, İnstitutun əməkdaşlarının gözü qarşısında baş verib. Məsələ ilə bağlı E.Ələkbərovla əlaqə saxladıqda o bu barədə danışmaq istəmədiyini bildirib.

Xatırladaq ki, Elmi-Tədqiqat Kardiologiya İnstitutunun direktoru Gülnaz Dadaşova ilə bəzi həkimlər arasında ixtilaf yarandığı barədə ilk məlumatlar bu ilin əvvəllərində mətbuata sızıb. Apreldə isə adları açıqlanmayan institutun bir qrup işçisi ”Bakupost”a bildirib ki, baş direktor təcrübəli həkimləri işdən uzaqlaşdırır, bəzilərini isə müxtəlif bəhanələrlə aşağı vəzifələrə təyin edir. Sitat: ”Gülnaz Dadaşova işçilərlə çox kobud rəftar edir. O, uzun illər institutda çalışan tanınmış həkimləri müxtəlif bəhanələrlə buradan didərgin salıb və ya “zərərsizləşdirib. İstəyir ki, hamı ona baş əysin, biət etsin. Özündən yaşca və təcrübəcə böyük olan alimləri, professorları saatlarla qapısının ağzında gözlətdirir, onlarla kobud rəftar edir, lazımsız tələblər irəli sürür, yersiz izahatlar yazdırır. İstəyir ki, hamı bezib öz ərizəsi ilə işdən çıxsın. Onun bu hərəkətlərinə qarşı çıxanları isə şər-böhtan atmaqla işdən uzaqlaşdırır... Direktor eyni zamanda institutda aparılmayan bəzi müayinələr, xüsusilə koronar angioqrafiya (anju) üçün 2-3 özəl klinika ilə (xüsusiilə ”Kəpəz” klinikası) “otkat” qarşılığında işləyir, həmin tibb mərkəzlərindən aylıq haqq alır. Paytaxtın əsas ürək mərkəzində nə rentgen cihazı var, nə angioqrafiya. Direktor institutun olan-qalan imkanlarını da aradan qaldırıb...”

Pribaltikada təhsil alan, bir müddət Latviyada (Riqa Elmlər Akademiyasında) və Rusiyada çalışan, 22 ildir isə Elmi-Tədqiqat Kardiologiya İnstitutunda işləyən Nurlana Rüstəmov isə son zamanlar baş verənlərlə bağlı mətbuata açıqlamasında belə deyib: ”Vəziyyət dözülməz həddə çatıb. Daha çox mənəvi təzyiq altındayıq. Hesab edirəm ki, həkim və elmi işçi kimi hüquqlarımız tapdalanır. Biz özümüzü həkim və alim kimi hiss etmirik. O həkimlik qüruru, ləyaqəti, rahatlığı yoxdur... Rəhbərlik saat 5 oldu, gedir evinə, reanimatoloq gecə saat 12-yə 1-ə qədər işindədir. İstirahət yox, bayram yox. İndi reanimatoloq kimi çalışmıram. Səhhətimə və yaşıma görə çıxdım. Amma reanimatoloqlarımız var. Onlar da dəyərləndirilmir, mənəvi basqı var. Mən infarkt şöbəsinin əvvəlki ləzzətini duymuram. Mənə tematik xəstələr verilməlidir. Amma ümumiyyətlə, xəstə verilmir...”

Qeyd olunan ittihamlarla bağlı Gülnaz Dadaşova hələ ki, münasibət bildirməyib. Lakin aprel ayında yerli mediada adıçəkilən institut daxilindəki narazılıqların ardından oxu.az-ın sorğusuna cavab olaraq qeyd edilib ki, yayılan məlumatlar həqiqətləri əks etdirmir və qərəzli olaraq böhtan xarakterli yazılıb. O da əlavə olunub ki, Elmi-Tədqiqat Kardiologiya İnstitutu hazırda yüksək səviyyədə vətəndaşlara xidmət göstərir.

Bundan başqa, aylar öncə Səhiyyə Nazirliyinin institutda yaşananlarla bağlı yoxlamalara başlayacağına dair məlumatlar yayılıb. İlkin məlumata görə, institutun bazası, personal və xidmətlər bütünlüklə təftiş olunacaq. Sözügedən institutun Mətbuat Xidmətindən məlumatı təsdiq ediblər. Bildirilib ki, bu proses Səhiyyə Nazirliyinin keçid dövrü ilə əlaqədar aparılır: Sitat: ”Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 13 may tarixli Fərmanına əsasən, elmi-tədqiqat institutları Səhiyyə Nazirliyinin tabeliyinə verilib. Hazırda həmin fərman rəhbər tutularaq müəssisələrdə cari vəziyyətin müəyyən edilməsi ilə əlaqədar monitorinqlər aparılır. Yoxlama tək bizim institutda deyil, bizdən öncə artıq elmi-tədqiqat institutların əksəriyyətində aparılıb. Hazırda Kardiologiya İnstitutunda aparılan monitorinq bir neçə gün davam edəcək. Proses mərhələli şəkildə digər institutlarda da davam etdiriləcək”. Lakin sonradan yoxlamaların nəticələri barədə mətbuata hər hansı məlumat verilməyib.

O da maraqlıdır ki, Səhiyyə Nazirliyi adıçəkilən Elmi-Tədqiqat İnstitutu daxilində baş verənlərə indiyədək hər hansı münasibət bildirməyib.

***Sənan Mirzə***

**5.3.6. Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Azərbaycan bu il dünya ölkələri ilə səmərəli əməkdaşlıq qurub

## *Elşad Mirbəşiroğlu: "2023-cü il ərzində biz antiterror tədbirlərini gördükdən sonra Azərbaycana qarşı müxtəlif platformalarda qərəzli siyasi mövqelərin formalaşdırılması istiqamətində cəhdlər oldu"*



***Azərbaycan Respublikası müstəqillik dövründə istər regionda, istərsə də dünya miqyasında ayrı-ayrı dövlətlər və beynəlxalq təşkilatlarla siyasi, iqtisadi, hərbi, sosial, mədəni və digər sahələrdə ikitərəfli və çoxtərəfli əlaqələr qurmağa və beynəlxalq nüfuzunu ildən-ilə artırmağa nail olub. Azərbaycan dünya dövlətləri ilə ikitərəfli əlaqələrin və regional tərəfdaşlığın genişləndirilməsinə böyük önəm verir. Bu baxımdan 2023-cü ildə də bir sıra tədbirlər həyata keçirildi.***

Deputat Elşad Mirbəşiroğlu "Unikal" qəzetinə 2023-cü ilin Azərbaycanın region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlıq əlaqələrini şərh edib.

Deputat bildirib ki, Azərbaycan dövləti 2023-cü ildə də həm beynəlxalq siyasi münasibətlərdə, həm də iqtisadi əməkdaşlıqda kifayət qədər fəallıq nümayiş etdirib.

"2023-cü il həm də onunla yadda qaldı ki, Azərbaycan öz ərazi bütövlüyünü təmin etməklə yeni bir obrazda beynəlxalq münasibətlər sistemində iştirak etməyə başladı. Bu, Azərbaycan tarixində çox mühüm hadisə idi. Təbii ki, Azərbaycanın yeni reallığı həm Cənubi Qafqaz regionunda ümumi vəziyyətə, həm də Azərbaycanın qatıldığı, əməkdaşlıq etdiyi platformalara öz təsirini göstərmiş oldu. Azərbaycan prezidenti 2023-cü il ərzində Avropa, orta Asiya ölkələrinə intensiv səfərlər etdi. Bu səfərlər çərçivəsində ölkəmizin enerji sahəsində əməkdaşlığın əhəmiyyətli dərəcədə genişlənməsi perspektivləri yarandı. Orta Asiya ölkələri ilə Azərbaycan arasında münasibətlər özünün yeni mərhələsinə qədəm qoydu. Yeni əməkdaşlıq istiqamətlərinin yaradılması müşahidə edildi. Azərbaycan prezidentinin təşəbbüsü ilə Orta Asiya ölkələri arasında ənənəvi əməkdaşlıq sahələri ilə yanaşı, yeni müdafiə və təhlükəsizlik sahələrində də əməkdaşlıq haqqında sənədlər imzalandı. Bu da həm Azərbaycan üçün, həm də bu sahədə Azərbaycanla əməkdaşlıq edən dövlətlər üçün çox əhəmiyyətli hadisədir. Azərbaycan beynəlxalq təşkilatlar çərçivəsində kifayət qədər fəallığı, eləcə də təşəbbüsləri ilə yadda qaldı. Qoşulmama Hərəkatına sədrlik dövründə Azərbaycan hərəkatın tərkibində çox ciddi struktur islahatlarının aparılmasına nail oldu. Gələcəkdə Qoşulmama hərəkatının oturuşmuş bir təşkilata çevrilməsi imkanlarını yaratmış oldu. Bu da Qoşulmama Hərəkatı çərçivəsində çox mühüm hadisədir. Azərbaycan Türk Dövlətləri Təşkilatı çərçivəsində öz fəallığı ilə yadda qaldı".

E.Mirbəşiroğlu onu da qeyd edib ki, Azərbaycan prezidentinin yeni təşəbbüsü də təşkilatda səsləndi. Bu da təhlükəsizlik sahəsində əməkdaşlığın inkişaf etdirilməsi ilə bağlı oldu: "Bu, yeni bir təşəbbüs idi. Hansı ki, gələcəkdə Türk Dövlətləri Təşkilatına üzv olan ölkələr arasında ikitərəfli, eləcə də təşkilat çərçivəsində müdafiə və təhlükəsizlik sahəsində əməkdaşlığın yaradılması, inkşaf etdirilməsinin əsasları Azərbaycan prezidenti cənab İlham Əliyev tərəfindən qoyulmuş oldu".

Deputat onu da qeyd edib ki, Azəbaycan bir çox təşkilatlar qarşısında haqlı mövqelərini qorumaq istiqamətində də fəaliyyət göstərməli oldu.

"Bildiyimiz kimi, 2023-cü il ərzində biz antiterror tədbirlərini gördükdən sonra Azərbaycana qarşı müxtəlif platformalarda qərəzli siyasi mövqelərin formalaşdırılması istiqmaətində cəhdlər oldu. Azərbaycan bu cəhdlərin qarşısını inamla alırdı. Bu mənada BMT Təhlükəsizlik Şurasında Ermənistan tərəfinin əsassız iddia və çağırışları qarşısında Azərbaycana qarşı qərəzli müzakirələr təşkil olunurdu. Azərbaycan bu müzakirələr zamanı öz mövqelərini inamla qorumaq bacarığını, iradəsini nümayiş etdirdi. Bundan əlavə, bir sıra ölkələr, Fransa, ABŞ Azərbaycana qarşı qərəzli siyasi mövqelərin formalaşdırılmasına cəhdlər edirdirlər. ABŞ Konqresi 907-ci əlavənin hüquqi qüvvəsinin təmin olunması ilə bağlı qərar qəbul etdi. Ayrıca olaraq, ABŞ Dövlət Depatamentinin rəhbərinin köçəkçisi Brain Azərbaycan-Amerika münasibətləri ilə bağlı olduqca kəskin və əsassız mövqe sərgiləmişdi ki, Azərbaycanla ABŞ arasında münasibətlər əvvəlki kimi olmayacaq. Azərbaycan rəsmilərinin Vaşinqtona səfərlərinə məhdudiyyət tətbiq edilirdi. Lakin Azərbaycan prezidentinin qətiyyəti və iradəsi sayəsində Amerika Birləşmiş Ştatları geri çəkilmək məcburiyyətində qaldı. Blinken Azərbaycan prezidentinə zəng edərək münasibətlərin normalaşdırılması istiqamətində addımlar atdı. Brain ölkəmizə səfər etmək üçün bizdən icazə aldı. Azərbaycan prezidenti də dövlətimizin maraqlarını müdafiə edərək şərtlər irəli sürərək müvafiq şərtlər daxilində icazə verdi. Bütün bunlar və çoxsaylı məqamlar onu göstərir ki, Azərbaycan beynəlxalq münasibətlər sistemində öz fəallığını əhəmiyyətli dərəcədə artırmışdı. Bu, həm də təşəbbüslər formasında özünü büruzə vermiş oldu. İkincisi isə ölkəmizə qarşı əsassız siyasi hücumların qarşısını da inamla almaq imkanlarını nümayiş etdirmiş oldu. Bir sözlə, 2023-cü il Azərbaycan üçün həm beynəlxalq münasibətlər, həm siyasi, həm də iqtisadi əlaqələr baxımından çox məhsuldar dövr kimi qiymətləndirilə bilər", - deyə deputat bildirib.

*Gülayə Mecid*

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**




# "Azərpoçt" kiberdələduzluqla bağlı xəbərdarlıq etdi

***Kiberdələduzlar Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə məxsus "Azərpoçt"MMC-nin müştərilərini, eləcə də digər vətəndaşları hədəfə alıblar.***

Bu barədə "Unikal"a şirkətdən bildirilib. Məlumata görə, son zamanlar vətəndaşlara "Azərpoçt"un adından kütləvi şəkildə saxta mesajlar göndərilir, həmin mesajlarda vətəndaşların bağlamasının ölkəyə daxil olduğu, amma guya ev ünvanının natamamlığı səbəbindən mənzilə çatdırılmadığı qeyd olunur və elə həmin mesajda da saxta link göndərilir ki, ünvan və digər fərdi məlumatlar daxil edilsin.

"Belə olduğu halda da vətəndaşlar, çox təəssüf ki, aldanaraq, öz fərdi, xüsusilə bank kartı məlumatlarını daxil edirlər və dərhal kiberdələduzların qurbanına çevrilirlər.

"Azərpoçt" olaraq, vətəndaşlarımızı ayıq-sayıq olmağa, onlara gələn mesajlara, linklərə həssas yanaşmağa çağırır, xüsusilə bildiririk ki, "Azərpoçt" bağlama çatdırılmasının ödənişini onlayn qaydada həyata keçirmir və heç bir halda vətəndaşa məxsus kart məlumatlarını tələb etmir.

Saxta və həqiqi mesaj nümunələri aşağıdakı kimidir:

SAXTA MESAJ:

Azərpoçt: Paketiniz anbara gəlib, lakin ünvan məlumatı natamam olduğu üçün çatdırıla bilmir. Zəhmət olmasa linkdəki ünvanı təsdiqləyin.

https://post.az-com.top/aze - YANLIŞ LİNK

(Ən son logistika statusunu əldə etmək üçün linki kopyalayın və Safari-də açın) - YANLIŞ YÖNLƏNDİRMƏ

HƏQİQİ MESAJ:

ADINIZA DAXIL OLMUSH BB023584438AZ SAYLI GONDERISHI SHEXSIYYET VESIQENIZI TEQDIM ETMEKLE AZ4700 POCHT SHOBESINDE ALA BILERSINIZ. AZERPOCHT

Saxta mesajlarda vətəndaş yanlış linklərə yönləndirilir və ondan növbəti addımlar atması tələb olunur. Həqiqi mesajda isə vətəndaş heç bir linkə yönləndirilmir, mütləq poçt göndərişinin 13 simvoldan ibarət izləmə nömrəsi və təhvil almaq üçün poçt şöbəsinin indeksi qeyd olunur.

Vətəndaşlardan "Azərpoçt"la bağlı şübhəli mesaj və bildirişlər aldıqda, dərhal "Azərpoçt"un 169 Çağrı mərkəzi, eləcə də sosial şəbəkə hesabları vasitəsilə dəqiqləşdirmə aparmalarını xahiş edirik", - deyə açıqlamada qeyd olunub.

# Sərhəddə gözləmədə olan yük avtomobillərinin sayı açıqlandı

***Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi (AYNA) gömrük-keçid məntəqələrində yük maşınlarının sayı ilə bağlı son rəqəmləri açıqlayıb.***

Bu barədə "Unikal"a Azərbaycan Yerüstü Nəqliyyat Agentliyindən məlumat verilib.

Qeyd edilib ki, gömrük-sərhəd məntəqələrində çıxışda gözləmədə olan nəqliyyat vasitələrinin sayı barədə məlumata əsasən, "Astara" gömrük postunda 164, "Biləsuvar" gömrük postunda 70, "Qırmızı Körpü" gömrük postunda 1103, "Mazımqara" gömrük postunda 27, "Samur" gömrük postunda 47 və "Xanoba" gömrük postunda 10 yük maşını var.

UNI-44_27 IYUI-QARA.qxd 12/14/2023 11:20 PM Page 13



# Azərbaycan Respublikasının beynəlxalq münasibətləri: Region və dünya ölkələri ilə diplomatik əlaqələr

***Müstəqilliyinin bərpasının onillik yubileyini qeyd etməyə hazırlaşan ölkəmiz, hələ 1991-ci ilin oktyabrında qəbul edilmiş dövlət müstəqilliyinin bərpası haqqında konsepsiya aktında Azərbaycanın demokratik dəyərlərə əsaslanan müasir cəmiyyət qurmaq niyyəti elan edilmişdi. Çox təəssüflər olsun ki, müstəqilliyin əldə olunduğu ilk illərdə bir sıra obyektiv və subyektiv səbəblər üzündən həmin niyyəti reallaşdırmaq mümkün olmamışdır. Ölkə daxilində ictimai sabitliyin olmaması, xarici hərbi təcavüz cəhdləri, irticaçı qüvvələrin dövlət çevrilişi cəhdləri ümumi inkişafı ləngitdiyi kimi, cəmiyyətin həyatının bütün sahələrində köklü islahatlar aparıb xalqın rifahının yüksəldilməsi istiqamətində əsaslı addımlar atmağa və dövlətin beynəlxalq münasibətlər sisteminin qurulmasına da mane olurdu.***

Lakin Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə bu cür mənfi təzahürlər aradan qaldırıldıqdan sonra sözün həqiqi mənasında Azərbaycan dövləti üçün strateji əhəmiyyəti həmin prob- lemlərin həyata keçirilməsi üçün əlverişli şərait yarandı. Yəni, özünün suverenliyini yenicə elan etmiş Azərbaycana dünya dövlətlərində getdikcə inam yaranır, ölkəmizə maraq artır və tükənməz maddi sər- vətlərin, təbii ehtiyatların qarşılıqlı şəkildə əldə olunmasına investisiya qoymaq imkanları nəzərdən keçirilməyə başlandı.

Hazırda Azərbaycanın dünya birliyinin layiqli üzvünə çevrilməsi əsası ulu öndər tərəfindən qoyulmuş siyasi kursun Prezident İlham Əliyev tərəfindən layiqincə davam etdirilməsinin nəticəsidir. Hələ 2003- cü ildə keçirilən prezident seçkilərində cənab İlham Əliyev vəd etmişdi ki, əgər xalq ona etimad göstərərsə, ulu öndər Heydər Əliyev siyasətini davam etdirəcək. Dövlətimizin başçısı aprelin 18-dəki andiçmə mərasimində də bu məsələni xüsusi vurğuladı: “Mən fəxr edirəm ki, xalq mənə inandı, məni dəstəklədi və mən də öz növbəmdə sözlərimə əməl etdim. Son 15 il ərzində Azərbaycanda hərtərəfli inkişaf təmin edilmişdir. Bunun əsas şərti ondan ibarətdir ki, biz ulu öndərin yolu ilə gedirik. Onun qoyduğu yol yeganə düzgün yoldur və Azərbaycanın müstəqillik tarixi bunun əyani sübutudur.

Azərbaycan-Rusiya əlaqələrinin tarixinə kiçik bir ekskursiya edilsə sezilər ki, müstəqilliyin bərpasından sonrakı ilk illərdə iki ölkə arasında münasibətlər o qədər də asan olmayıb. Lakin Azərbaycanın ümummillli lideri Heydər Əliyev hakimiyyətə gəldikdən sonra vəziyyət yaxşılığa doğru dəyişməyə başlayıb. Məhz 1993-cü ilin yayından müstəqil Azərbaycana rəhbərlik etməyə başlayan Heydər Əliyev Rusiya ilə dostluq münasibətlərinin qurulmasında mühüm rol oynadı, iki ölkə arasında strateji tərəfdaşlığın əsaslarını qoydu. 2000-ci ildə Vladimir Putinin Rusiya Federasiyasının Prezidenti seçilməsi ilə bu ölkənin rəhbərliyi Azərbaycanla münasibətlərdə daha praqmatik vəzifələr və priritetlər irəli sürməyə başladı. Əvvəlki dövrdən fərqli olaraq yalnız MDB çərçivəsində inteqrasiya məqsəd seçilmədi, hər iki ölkənin milli maraqları (təhlükəsizlik, iqtisadi inkişaf) daha vacib elan olundu. Sonrakı dövrdə Azərbaycan və Rusiyanın sıx dostluq münasibətləri qurması üçün əhəmiyyətli siyasi baza formalaşdırıldı. İki ölkə arasında bu günə kimi 150-dək hökumətlərarası sənəd imzalanıb. Bu sənədlər siyasi, hərbi-texniki, təhlükəsizlik, iqtisadi (ticarət, investisiya, maliyyə, yanacaq-energetika sahəsində əməkdaşlıq, Azərbaycan neftinin Rusiya ərazisi ilə nəql olunması), elmi, mədəni, həmvətənlərin hüquqlarının təmin olunması sahələrini əhatə edir.



Azərbaycanın xarici siyasət istiqamətlərindən biri kimi Amerika dövləti ilə münasibətlərə, xüsusən bu regionun və dünyanın fövqəldövləti hesab olunan ABŞ kimi ölkələrlə əlaqələrə prioritet vəzifə kimi xüsusi yer almışdır. Azərbaycanla ABŞ arasında tərəfdaşlıq bərabərlik, qarşılıqlı hörmətə və enerji təhlükəsizliyi, sülhməramlı əməliyyatlar, terrorla mübarizə və digər sahələr daxil olmaqla uğurlu əməkdaşlıq tarixçəsinə əsaslanır. ABŞ Azərbaycanın müstəqilliyini 25 dekabr 1991-ci ildə tanımış, diplomatik münasibətlər 28 fevral 1992-ci ildə qurulmuşdur. Azərbaycanın ABŞ-da səfirliyi 6 mart 1992-ci ildən, ABŞ-ın Azərbaycanda səfirliyi isə 16 mart 1992-ci ildən fəaliyyət göstərir. Azərbaycanın Los Anceles şəhərində Baş Konsulluğu 9 avqust 2005-ci il tarixində təsis olunmuşdur. 2010-cu ildən isə Azərbaycanın Yeni Meksika ştatının Santa Fe şəhərində fəxri konsulluğu mövcuddur. Azərbaycan Respublikasının Prezidentinin 26 iyul 2021-ci il tarixli sərəncamı ilə Xəzər İbrahim Azərbaycanın ABŞ-dakı səfiri təyin olunub. 12 mart 2019-cu il tarixindən isə ABŞ-ın Azərbaycandakı səfiri Örl (Li) Litzenberqerdir. Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları arasında 86 sənəd imzalanmış və genişmiqyaslı əməkdaşlıq üçün müvafiq normativ-hüquqi baza yaradılmışdır. 2001-ci il sentyabrın 11-də Amerikada törədilən dəhşətli terror hadisələri yəqin ki, xatirələrdən silinməyib. O zaman beynəlxalq terrorizmə qarşı mübarizədə Azərbaycan ABŞ-a öz hava məkanını açıq elan etdi və bu sahədə lazımi məlumatları təqdim etməyə hazır olduğunu bildirdi. Bununla da Azərbaycan beynəlxalq terrorizmə qarşı mübarizədə Amerika ilə həmrəyliyini nümayiş etdirdi. Sonradan Əfqanıstanda və İraqda terrorizmə qarşı mübarizədə Azərbaycanın əsgər və zabitlərinin fəal iştirakı iki ölkə arasında əməkdaşlığı daha da yaxınlaşdırdı. Azərbaycanın antiterror koalisiyasındakı fəal iştirakı ABŞ rəsmiləri və senatorları tərəfindən yüksək qiymətləndirilib. Biz bunu Amerikadan Azərbaycana gələn rəsmi nümayəndələr ilə keçirilən görüşlərdə də eşidirik. Məsələn, Senatın Xarici Əlaqələr Komitəsinin sədri, senator Riçard Luqar ölkəmizdə səfərdə olarkən bəyan etdi ki, Azərbaycanla ABŞ arasında güclü tərəfdaşlıq əlaqələri var, iki ölkə arasındakı bu əməkdaşlıq gələcəkdə daha da genişlənəcək. Bu da öz növbəsində regionun təhlükəsizliyinə töhfə verəcək. R.Luqar həmçinin bildirib ki, Amerika-Azərbaycan əlaqələrinin çox ümidverici gələcəyi vardır. Amerikada fəaliyyət göstərən güclü erməni lobbisi uzun müddət çalışsa da, qondarma “erməni soyqırımı” məsələsinin Konqresdə müzakirəyə çıxarılmasına nail ola bilmədi. Hətta bu barədə qanun layihəsi hazırlanıb Konqresə təqdim olunsa da, son anda sabiq ABŞ Prezidenti Bill Klinton və sabiq dövlət katibi Kondaliza Rays bu qanun layihəsinin müzakirəyə çıxarılması ilə əlaqədar Konqresə müraciət etmiş və istəklərinə nail olmuşlar. Hətta həmin qanun layihəsinə imza atan konqresmenlər sonradan öz imzalarından imtina etmiş, bunu əsl həqiqəti ətraflı öyrənməmələri ilə əlaqələndirmişlər. Hazırda iki ölkə arasında əməkdaşlıq yeni mərhələyə qədəm qoyub. Bu da ölkəmizin beynəlxalq aləmdəki mövqelərini daha da artırmış, Azərbaycanın dünyanın inkişaf etmiş dövlətləri ilə bir sırada addımlamasına zəmin yaratmışdır.

Qafqaz regionu, strateji əhəmiyyətə malik olan bir coğrafi məkan olaraq, Gürcüstan və İranla Azərbaycan Respublikası arasında əlaqələrin önəmli bir hissəsini təşkil edir.

- Gürcüstan, Azərbaycanın qonşularından biri olaraq, iki ölkə arasında sıx və dostca əlaqələr mövcuddur.
- Energetika sahəsində əməkdaşlıq: Gürcüstan, Azərbaycanın energetika layihələrinin bir hissəsi kimi, ölkənin energetika təhlükəsizliyinə və energetika ticarətinə əməkdaşlıq edir.
- Transport koridorları: Gürcüstan, Azərbaycanın dünya bazarlarına qoşulmasını təmin edən əhəmiyyətli bir tranzit ölkəsidir. Bakı-Tiflis-Qars dəmir yolunun fəaliyyət göstərməsi bu əməkdaşlığı daha da gücləndirmişdir.
- Energetika əməkdaşlığı: Azərbaycan və İran, energetika sahəsində müxtəlif layihələrlə əməkdaşlıq edir. ”Bakı-Qazax-Tehran” kürsüsü və ”Neftçala-Bandar Abbas” neft kürsüsü kimi energetika layihələri iki ölkə arasında əlaqələrin möhkəmlənməsinə nail olur.
- İqtisadi əməkdaşlıq: İki ölkə arasında ticarət və iqtisadi əməkdaşlıq sahələrində müxtəlif layihələr və sahələrdə əməkdaşlıq olur.
- Transport: İran, Azərbaycanın nəqliyyat və tranzit layihələrinin inkişafına dəstək verir.

Bu əlaqələr, Qafqaz regionundakı strateji əhəmiyyətli məsələlərin həlli və iki ölkə arasında əməkdaşlığın artırılması üçün bölgənin sürətli inkişafına dəstək verir.

## Azərbaycanın Diplomatik Nailiyyətləri: Tarixi Baxış...

Azərbaycanın diplomatik tarixi, müstəqil dövlət kimi bəlli olan 1918-ci ildən başlayaraq mövcud günlərə qədər geniş və zəngin bir tarixi əhatə edir. Ümummilli Lider tərəfindən qoyulan və Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilən xarici siyasət strategiyası dövlətlərarası regional və beynəlxalq əlaqələrə daha yaxından qatılaraq Şərq və Qərb dəyərlərinin sintezindən yaranmış cəhətləri özündə ehtiva edərək, dünya birliyinə sıx inteqrasiya olunmaq xəttini seçib. 2003-cü ildən başlayaraq, o cümlədən son on altı il ərzində xarici siyasət sahəsində böyük uğurlar əldə edilib. Xüsusilə qeyd etmək lazımdır ki, Azərbaycanla əməkdaşlıq etmək istəyən ölkələrin sayı artıb, nüfuzlu beynəlxalq təşkilatlarla əməkdaşlıq genişlənib. Hazırda regionda və dünyada baş verən əsas iqtisadi, siyasi və mədəni proseslərdə Azərbaycan dövləti layiqincə təmsil olunur, öz mövqeyini bildirir və mənafelərini qoruyur. Ölkə daxilində gedən demokratik proseslər və iqtisadi yüksəlişlə yanaşı, uğurlu xarici siyasət bu gün dünyanın aparıcı dövlətlərinin, nüfuzlu beynəlxalq təşkilatların diqqətini Azərbaycana yönəldir və bu da beynəlxalq hüquq normalarına uyğun qarşılıqlı faydalı əməkdaşlığın yaranmasına və inkişafına əlverişli zəmin yaradıb.

Prezident İlham Əliyevin rəhbərliyi altında 44 günlük Vətən müharibəsində qazanılan tarixi qələbədən sonra Azərbaycan bölgədə və dünyada yeni reallıqlar yaratmış oldu ki, bu da ölkəmizin beynəlxalq aləmdəki mövqeyini daha da möhkəmləndirir. Azərbaycanın son illər ərzində xarici siyasət strategiyasını uğurla həyata keçirməsi ölkəmizin dünya miqyasındakı nüfuzunu xeyli artırıb.

***Ülkər Rəhimova, Zəhra Quluzadə - Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının 2-ci kurs tələbələri***

UNI-44_27 IYUI-QARA.qxd 12/14/2023 11:20 PM Page 14



# Dövlət qulluğuna qəbul imtahanı keçiriləcək

***Dövlət İmtahan Mərkəzi dekabrın 17-də dövlət qulluğunda inzibati vəzifələrin B növünə (inzibati icraçı vəzifələr) aid olan BA və BB qruplarına uyğun vəzifələr üzrə dövlət qulluğuna qəbul imtahanı keçirəcək.***

"Unikal" xəbər verir ki, imtahan bütün binalarda eyni vaxtda - saat 11:00-da başlanır və 3 saat davam edir.

Saat 10:45-dən sonra gələn namizədlər imtahana buraxılmırlar. İmtahan binasına buraxılış vərəqəsində qeyd olunan vaxtda gəlmək lazımdır. İmtahan binasına mobil telefon və digər rabitə vasitələri, elektron cihazlar, kalkulyator, elektron məlumat daşıyıcısı, kitab, dəftər, jurnal, konspekt, məlumat kitabçası, lüğət, cədvəl, çanta və digər yardımçı vəsaitlər gətirmək qadağandır. İştirakçılardan imtahan binasına əlavə əşyaları gətirməməyi xahiş edirik. Bütün bunlar



buraxılış rejimi işinin səmərəli təşkilinə və onun vaxtında başa çatdırılmasına mane olur.

İmtahanda iştirak etmək üçün qeydiyyatdan keçmiş namizədlər DİM-in internet saytına daxil olaraq "İmtahana buraxılış vərəqəsi"ni çap etməlidirlər. Buraxılış vərəqəsi ilə yanaşı onlara "Namizədin yaddaş kitabçası" da təqdim olunur. Burada namizədlərə imtahan prosesi ilə bağlı vacib tövsiyələr, onların əməl etməli olduqları qaydalar və digər zəruri məlumatlar çatdırılır.

Namizədlər imtahana aşağıdakı sənədləri gətirməlidirlər:

- şəxsiyyəti təsdiq edən sənədin əsli;
- "İmtahana buraxılış vərəqəsi".

İmtahan kağız daşıyıcılar vasitəsilə Bakı və Naxçıvan şəhərlərində 13 binada təşkil olunacaq. İmtahanda iştirak etmək üçün BA qrupu üzrə 625, BB qrupu üzrə 2588 olmaqla, ümumilikdə 3213 namizəd qeydiyyatdan keçib. İmtahanının keçirilməsi üçün 13 ümumi imtahan rəhbəri, 35 imtahan rəhbəri, 293 nəzarətçi müəllim, 45 buraxılış rejimi əməkdaşı ayrılıb.

# Agentlik: "Oğuzda daş-beton bəndi əsaslı təmir edilir"

***Oğuzda daş-beton bənd əsaslı təmir olunur. Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyindən bildirilib ki, hər il olduğu kimi bu il də Oğuz rayonu ərazisində mövcud əkin sahələrinin suvarılması, o cümlədən sel və daşqınlara qarşı qabaqlayıcı tədbirlər davam etdirilir. Bu istiqamətdə işlər plana uyğun aparılır. Daşağıl çay sistemində güclü sel suları nəticəsində qəzalı vəziyyətə düşən daş-beton bəndin əsaslı təmirinə başlanılıb. İşlər sürətlə davam edir. Əraziyə texnika vasitəsilə beton verilir.***

Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin Oğuz rayonunda yerləşən yerli idarəsi ümumilikdə 13000 hektardan artıq suvarılan sahələrin suvarma suyu ilə təmin olunmasına xidmət edir. Cari ildə 3543 ha taxıl, 235 ha qarğıdalı, 731 ha yem bitkiləri, 203 ha bostan-tərəvəz, 5954 ha çoxillik əkmələr, 112 hektardan artıq tütün və 1794 ha həyətyanı olmaqla ümumilikdə 12572 ha fiziki sahədə 38856 ha rejimlə suvarma aparılıb. Daşağıl çay, Oğuz çay, Xal-xal çay, Qala çay və Türyançay sistemlərində isə 527 min m?-dən artıq həcmdə çay məcrasının tənzimlənməsi işləri görülüb. Hazırda Daşağıl çayının əkin sahələrinə yaratdığı problemin aradan qaldırılması üçün çayda düzləşmə işləri həyata keçirilir.

Daşağıl çayın düzləşdirilməsi və təmizlənməsi ətrafda olan əkin sahələrini sel sularından qoruyur. Bununla da fermerlər həmin ərazilərdə asanlıqla əkin işləri apara bilirlər.

Qeyd edək ki, Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin Oğuz rayonunda yerləşən yerli idarəsinin balansında 576 km suvarma kanalları mövcuddur ki, onların da əsas hissəsi torpaq məcralı ka-



nal və arxlardır. İlin əvvəlindən idarənin istismar tədbirləri planına uyğun olaraq suvarma kanallarının 160 km uzunluqda hissəsində ekskovatorla və buldozerlərlə 310 min m? həcmdə lildən təmizlənmə işləri aparılıb. İdarənin əsaslı təmir planına əsasən Həsənbəy arxı bu günədək 500 paqono metr hissədə beton üzlüyə alınıb.

***Hüseyn İsgəndərov***

# Şəhidlər - ölməzlik timsalı...

***Masallı rayon Mərkəzi Kitabxanasında doğma Azərbaycanımızın hər qarışını əziz bilib, onun uğrunda canından keçən şəhidlərlə bağlı vaxtaşırı tədbirlər təşkil olunur. Növbəti belə tədbir düşmənə qarşı son damla qanına qədər döyüşərək şəhidlik zirvəsinə ucalan qəhrəmanlar Ramiz Cəfərov və Vüsal Məhərrəmovun doğum günlərinə həsr olunmuşdu.***

Tədbir ulu öndər Heydər Əliyevin və Vətən torpaqlarının azadlığı uğrunda qan tökən şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla anılmaqla başlandı.

Vətən müharibəsində qəhrəmanlıq göstərərək şəhidlik zirvəsinə ucalan döyüşçülərdən polkovnik-leytenant Ramiz Cəfərov və Azərbaycan Silahlı Qüvvələrinin leytenantı Vüsal Məhərrəmovun həyat və döyüş yolu haqqında ətraflı məlumat verən kitabxananın əməkdaşı R.Dadaşov onu da bildirdi ki, xalqımıza 30 ildən sonra qələbə sevincini yaşadan belə qəhrəman Vətən oğulları bizim iftixar mənbəyimiz və qürur yerimizdir. Onların axıtdığı qanla indi




Qarabağımız canlanır, Vətən yaşayır. Şəhid qəhrəmanları hər zaman yad etmək, xatirəsini əziz tutmaq hər birimizin müqəddəs borcudur.

Sonra kitabxananın digər əməkdaşı R.İsmayılov məruzə ilə çıxış etdi. Vurğuladı ki, Vətənimizin ərazi bütövlüyünün bərpasında qəhrəman şəhidlərimiz canını fəda edərək mənfur düşmənin layiqli cavabını veriblər.

10 dekabr 1974-cü ildə Donetsk vilayətində təvəllüd tapan Xüsusi Təyinatlı Qüvvələrinin şəhid polkovnik-leytenantı Ramiz Cəfərov tabeliyində olan hərbi qulluqçularla Cəbrayıl, Şuşa rayonları istiqamətində gedən döyüşlərdə vuruşub. Müharibə meydanında olduğu 40 gün ərzində bir sıra yaşayış məntəqələrinin, eləcə əlverişli mövqelərin, strateji nöqtələrin azad edilməsi uğrunda mərdlik göstərib. Noyabrın 6-da Şuşa istiqamətində düşmən gülləsinə tuş gəlib. Ölümündən sonra Ramiz Cəfərova "Vətən Müharibəsi Qəhrəmanı" adı verilib və "Vətən uğrunda", Cəbrayılın, Şuşanın azadlığına görə medallarına layiq görülüb.

Vüsal Məhərrəmov 10 dekabr 1979-cu ildə Masallının Hişkədərə kəndində dünyaya göz açıb. Kənd orta məktəbi əla qiymətlərlə bitirib, 1997-2001-ci illərdə Gəncə Kənd Təsərrüfatı Akademiyasında təhsil alıb. Azərbaycan Ordusunu leytenantı İkinci Qarabağ müharibəsində Şuşa İstiqamətində gedən şiddətli döyüşlərdə qəhrəmancasına şəhid olub. Bir müddət sonra doğma kəndində torpağa tapşırılıb. Ailəli idi. İki oğlu yadigar qalıb.

Ölümündən sonra "Vətən uğrunda", Füzulinin, Şuşanın azadlığına görə medalları ilə təltif edilib.

***Zəfər Orucoğlu, AJB üzvü***



## Cinayət törətməkdə şübhəli bilinən 34 nəfər saxlanıldı

***Dekabrın 13-də ölkə ərazisində qeydə alınan 50, əvvəlki dövrlərdən bağlı qalan 6 cinayətin açılması daxili işlər orqanlarının əməkdaşları tərəfindən təmin olunub.***

DİN-in Mətbuat xidmətindən "Unikal"a verilən məlumata görə, axtarışda olduğuna görə ümumilikdə 124, o cümlədən borclu şəxs qismində axtarışda olan 103 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilib.

Narkotiklərlə əlaqəli 15, qanunsuz saxlanılan silah-sursatın götürülməsi və aşkarlanması ilə bağlı 29 fakt müəyyən edilib. Cinayət törətməkdə şübhəli bilinən 34 nəfər saxlanılıb.

Polis əməkdaşları paytaxt və respublikanın ayrı-ayrı rayonlarında 1 ədəd tapança və 22 ədəd müxtəlif markalı tüfəng təhvil götürüblər.

Keçirilən əməliyyat tədbirləri ilə qanunsuz saxlanılan 3 tüfəng tapılıb.

## Xaricdə doktorantura təhsili alacaq namizədlərin siyahısı təsdiqləndi

***2023-cü il ərzində "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" çərçivəsində xaricdə doktorantura təhsilinə dair son sənəd qəbulu üzrə proqram iştirakçısı adını qazanmış namizədlərin siyahısı təsdiq olunub.***



"Unikal" xəbər verir ki, bu barədə Elm və təhsil Nazirliyi məlumat yayıb. Bildirilib ki, yekun nəticələrə əsasən, ümumilikdə 32 namizəd Dövlət Proqramına qəbul olub.

Qeyd edək ki, hazırda "2019-2023-cü illər üçün Dövlət Proqramı" çərçivəsində 23 ölkənin müvafiq reytinq cədvəlləri üzrə ilk 500-də yer alan ali təhsil müəssisələrində 260 Azərbaycan Respublikası vətəndaşı doktorantura səviyyəsi üzrə təhsil alır. Tələbələr ölkənin siyasi-iqtisadi inkişafı üçün önəmli olan 7 prioritet ixtisas istiqaməti ilə bağlı bilik əldə edirlər.

UNI-44_27 IYUI-QARA.qxd 12/14/2023 11:20 PM Page 15



# G7-nin müdafiə nazirləri görüşəcək



***2024-cü ildə İtaliya Yeddilik Qrupuna (G7) sədrlik edəcək.***

"Unikal" xəbər verir ki, bu barədə İtaliyanın müdafiə naziri Qido Krozetto Tokioda yaponiyalı həmkarı Minoru Kihara ilə danışıqlar zamanı bildirib.

2024-cü ildə İtaliyanın sədrliyi çərçivəsində ilk dəfə olaraq G7 ölkələrinin müdafiə nazirlərinin görüşü keçiriləcək.

# İsrail müxalifəti Netanyahunu yalan danışmaqda ittiham edib



***İsrail müxalifətinin lideri Yair Lapid baş nazir Benyamin Netanyahunu Qəzza zolağında həlak olan İsrail əsgərləri ilə bağlı "yalan danışmaqda və məsuliyyətdən yayınmaqda" ittiham edib.***

"Unikal" xəbər verir ki, o, bu barədə "X" sosial media platformasındakı hesabında açıqlama verib.

Müxalifət lideri Lapid Netanyahunu "müharibədən bir gün sonra heç kim Qəzzanın Fələstin prezidenti Mahmud Abbasa təhvil verilməsi ilə bağlı mübahisə etmədiyi bir vaxtda yeni müzakirələr yaratdığına" görə tənqid edib.

***Gülayə***

# Ermənistan Azərbaycanla sərhəddəki zavodu köçürdü

***Xəbər verdiyimiz kimi, Ermənistan Azərbaycanla sərhəddəki Arazdəyəndə tikməyə çalışdığı metallurgiya zavodunun yerini dəyişib.***

"Unikal" xəbər verir ki, bu barədə erməni KİV məlumat yayıb.

Zavodun ərazisi Ararat bölgəsinin Ararat kəndinə köçürülüb. Bununla bağlı hökumət tərəfindən zavodun tikilməsi üçün 9 hektara yaxın ərazi ayrılıb.

# NATO hərbi büdcəsini artırır



***NATO hərbi büdcəsini 2,03 milyard avroya çatdıracaq.***

"Unikal" xəbər verir ki, bu barədə "Reuters" agentliyi yazıb.

Bunun 2023-cü illə müqayisədə 12 faiz çox olduğu bildirilib: "Alyansın ümumi maliyyə vəsaitindən istifadənin artırılması və genişləndirilməsi müttəfiqlərə ümumi təhlükəsizlik problemlərini daha effektiv həll etməyə imkan verir.

Bundan əlavə, mülki büdcə 18,2 faiz artaraq 438,1 milyon avroya çatacaq.

# Baş katib qalmaqala görə istefa verdi

***Yaponiya Nazirlər Kabinetinin baş katibi və hökumətin ikinci komandiri Hirokazu Matsuno hakim Liberal Demokrat Partiyası (LDP) üçün siyasi ianələrin toplanması zamanı maliyyə hesabatlarının pozulması ilə bağlı qalmaqaldan sonra istefa verib.***

"Unikal" xəbər verir ki, bu barədə onun özü mətbuat konfransında açıqlayıb.

"Mən baş nazir Fumio Kisidaya hökumətin baş katibi vəzifəsindən istefa vermək istədiyimi bildirdim və istefa verdim", - deyə baş katib bildirib.

Qalmaqal bir neçə fraksiyanı, əsasən mərhum keçmiş baş nazir Şinzo Abenin ən böyük partiyadaxili qrupunu əhatə edir.

Bundan əvvəl Yaponiyanın İqtisadiyyat, Ticarət və Sənaye naziri Yasutoşi Nişimura, Kənd Təsərrüfatı Departamentinin rəhbəri İçiro Miyaşita və İnzibati işlər naziri Junji Suzuki də istefa ərizələrini təqdim ediblər.

***Ağarza Elçinoğlu***

# "Yaxın gələcəkdə sülh sazişinin imzalanması çox realdır" - Paşinyan

***Ermənistanın baş naziri Nikol Paşinyan yaxın gələcəkdə Azərbaycanla sülh sazişinin imzalanmasını çox real adlandırıb.***



"Unikal" xəbər verir ki, bu barədə o, dənizə çıxışı olmayan ölkələrin nazirlərinin görüşünün açılış mərasimində bildirib.

"Əgər Azərbaycan bu prinsipləri təsdiq edərsə, o zaman yaxın gələcəkdə sülh sazişinin imzalanması çox realdır. Regional kommunikasiyaların açılması Ermənistanla Azərbaycan arasında sülhün bərqərar ediləcəyi təqdirdə mümkün olacaq. Dünənki əsir mübadiləsi buna əyani sübut idi. Bədbinlik yaradan faktlar üzərində dayanmaq istəməzdim, amma ən azından dünənki hadisəni sıfır nöqtəsi kimi dəyərləndirmək olar. Bundan istifadə edərək deyə bilərik ki, gələcək xəbərlər daha çox sülhün imzalanmasına işarə olsun", - deyə baş nazir açıqlayıb.

Onun sözlərinə görə, İrəvan Azərbaycan və Ermənistan arasında dəmir yolu əlaqəsini bərpa etməyə hazır olduğunu bildirir: "Ermənistanla Azərbaycanı iki dəmir yolu birləşdirir - birincisi Azərbaycanın Qazax bölgəsini Ermənistanın Tavuş rayonu ilə birləşdirən şimal marşrutu, ikincisi Azərbaycanın qərb rayonlarını Naxçıvan Muxtar Respublikası ilə birləşdirən cənub marşrutudur. Hesab edirik ki, Azərbaycanın qərb rayonları həm də şimal marşrutu ilə Naxçıvan Muxtar Respublikası və xarici dünya ilə əlaqə saxlaya bilər".

***Ağarza Elçinoğlu***

# Aİ rəsmiləri Ukraynanı qara dəlik adlandırırlar - KİV

***Bir çox Avropa rəsmiləri özəl olaraq qeyd edirlər ki, Ukrayna Aİ liderlərinin əksəriyyəti üçün əsas prioritet olmaqdan çıxıb və onu pulların axdığı qara dəlik adlandırıb.***

"Unikal" xəbər verir ki, bu barədə "Politico" nəşri yüksək rütbəli Avropa rəsmilərinə istinadən məlumat yayıb.

Qeyd olunur ki, Kiyevin rəsmi dəstəyinə və Macarıstanın Ukraynaya yardıma mane olması ilə bağlı bəyanatlara baxmayaraq, bir çox Avropa rəsmiləri Ukrayna münaqişəsinin artıq bir çox Aİ liderlərinin gündəlik həyatında əsas prioritet olmadığını qəbul edirlər.

"Şübhələr artır... Döyüş meydanındakı vəziyyət nə qədər çıxılmazdır? Biz bu qara dəliyə nə qədər çox pul tökəcəyik? Yaxın aylarda Avropadakı populistlər bu dalğaya minəcəklər", - KİV yazıb.



***Gülayə Mecid***

# "Öz məqsədimizə çatanda Ukraynada sülh olacaq" - Putin

***"Biz öz məqsədimizə çatanda Ukraynada sülh olacaq".***



"Unikal" xəbər verir ki, bunu Rusiya Prezidenti Vladimir Putin bu gün keçirdiyi illik mətbuat konfransında bildirib.

"Biz Ukraynada öz məqsədimizə çatanda sülh olacaq. Məqsədimiz isə dəyişilməyib. Bu, əvvəlki kimi Ukraynanın denazifikasiya və demilitirizasiyasıdır. Bizdə qismən səfərbərlik oldu. Həmin səfərbərlik çərçivəsində 300 min nəfər orduya çağırıldı. Həmin insanlar möhtəşəm döyüşürlər. Onlardan 14 nəfəri Rusiya qəhrəmanı adını alıb".

"Odessa Rusiya şəhəridir, bu haqda hamı bilir, lakin onlar tarixi cəfəngiyyatlar uydurdular", - deyən Rusiya lideri əlavə edib. Onun sözlərinə görə, Rusiya bununla SSRİ-nin dağılmasından sonra barışıb.

Qeyd edək ki, Odessa Ukraynanın üçüncü ən sıx şəhəridir.

# "NATO postsovet məkanının parçalanmasına çalışır" - Lukaşenko

***Postsovet məkanının parçalanması NATO ölkələrinin kəşfiyyat ictimaiyyətinin əsas vəzifələrindən biridir. Qərb region dövlətlərinin mehriban qonşuluq münasibətlərinə "paz vurmaq" istəyir.***

"Unikal" xəbər verir ki, bu fikri Belarus Prezidenti Aleksandr Lukaşenko MDB-yə üzv ölkələrin təhlükəsizlik orqanları və kəşfiyyat xidmətləri rəhbərlərinin 19-cu iclasında çıxışı zamanı deyib.

"NATO kəşfiyyat ictimaiyyətinin və onların müttəfiqlərinin əsas vəzifələrindən biri postsovet məkanının parçalanmasıdır. Onlar əvvəlcə bizim çoxəsrlik mehriban qonşuluq münasibətlərimizə zərbə vurmaq, sonra isə onları bir-birinə qarşı qoymaq istəyirlər", - Belarus prezidenti bildirib.

***Gülayə Mecid***



UNI-44_27 IYUI-QARA.qxd 12/14/2023 11:20 PM Page 16



# "Qarabağ" Avropa Liqasında "Qalatasaray"la qarşılaşa bilər

***Çempionlar Liqasından Avropa Liqasına düşən bütün 8 komanda bəlli olub.***

"Unikal" xəbər verir ki, dünən gecə keçirilən son turun oyunlardan sonra 3-cü yeri tutan sonuncu 2 komandanın da adına aydınlıq gəlib.

Bunlar "Milan" (İtaliya) və "Şaxtyor" (Ukrayna) olublar.

Beləliklə, Avropa Liqasının 1/16 finalında ÇL-in qrup üçüncüsü kimi aşağıdakı adları qeyd olunan komandalar iştirak edəcəklər:

"Qalatasaray" (Türkiyə)
"Lans" (Fransa)
"Braqa" (Portuqaliya)
"Benfika" (Portuqaliya)
"Feyenoord" (Niderland)
"Yanq Boyz" (İsveçrə)
"Milan" (İtaliya)
"Şaxtyor" (Ukrayna)

Qeyd edək ki, onların "pley-off"da rəqibləri AL-də öz qruplarında 2-ci yeri tutan komandalar olacaq. Pley-off mərhələsinin püşkü dekabrın 18-də atılacaq. Potensial rəqiblər sırasında Azərbaycan təmsilçisi "Qarabağ" da var. Ağdam təmsilçisi bu gün "Hekken"ə (İsveç) qarşı AL-də qrupun son oyununa çıxacaq.



Bakıda keçiriləcək bu görüş yerli vaxtla saat 21:45-də başlanacaq. Ağdam təmsilçisi qalib gələcəyi halda qrupun digər matçı - "Bayer" (Almaniya) - "Molde" (Norveç) oyununun nəticəsindən asılı olmayaraq 1/16 finala vəsiqə qazanacaq. Bu isə Azərbaycan futbol tarixində bir ilk olacaq.

# "Barselona"nın futbolçularına qəribə qadağa

***"Barselona" və "Jirona" futbol klublarının oyunçularına suya qənaət etmək üçün stadionun soyunub-geyinmə otaqlarında və bazada duş almaq qadağan edilib.***



"Unikal" xəbər verir ki, bu barədə İspaniyanın "Mundo Deportivo" qəzeti məlumat yayıb.

Nəşr bildirir ki, bu narahatlıqlar Kataloniya hökumətinin bölgədəki quraqlıq səbəbindən tətbiq etdiyi məhdudiyyətlərlə bağlıdır. Məhdudiyyətlərə görə, oyunçular yalnız oyundan və ya evdə məşqdən sonra duş ala biləcəklər.

Qeyd edək ki, Kataloniyada başlayan quraqlıq artıq ötən əsrin ən dəhşətlisi hesab olunur.

***Gülayə Mecid***

# Beş hakim futboldan ömürlük uzaqlaşdırıldı



***"Çayka"nın keçmiş direktoru ilə bağlı korrupsiya işi üzrə beş hakim ömürlük futboldan uzaqlaşdırılıb.***

"Unikal" Rusiya mediasına istinadən xəbər verir ki, bu barədə Rusiya Futbol İttifaqının (RFU) Hakimlər Komitəsinin sədri Pavel Kamantsev məlumat verib.

"Cinayət işinin istintaqı zamanı danışılmış oyunların təşkilində iştirak etmiş keçmiş hakimlərin adları müəyyən edilib: bunlar Anton Kaçanov, Denis Mezentsev, Denis Stepanişev, Sergey Kosteviç və Maksim Matyunindir. Onların hamısı ömürlük futboldan uzaqlaşdırılıb. Məhkəmədə çıxış edən digər arbitrlər də işdə şahid qismində iştirak ediblər", - Kamantsev bildirib.

Qeyd edək ki, 2018-ci ildən 2019-cu ilə qədər "Çayka"nın keçmiş direktoru Oleq Bayan komandası üçün müsbət nəticə əldə etmək üçün hakimlərə rüşvət verib. Dekabrın 13-də o, 1,8 milyon rubl cərimələnib.

# Misli Premyer Liqasının topa ən çox sahib olan və dəqiq ötürmə verən komandaları - Siyahı

***Beynəlxalq İdman Araşdırmalar Mərkəzi (CIES) dünyanın bir çox çempionatında klublarla bağlı statistik araşdırma aparıb.***

Qurum komandaların topa sahibolma və dəqiq ötürmə faizi ilə bağlı statistikalarını təqdim edib. Misli Premyer Liqasında bu mövsüm hər iki göstəricidə lider "Qarabağ"dır. Ağdam təmsilçisi 16 turda orta hesabla hər oyunda 59 faiz topa sahib olur. Komandanın dəqiq ötürmələrin faizi isə 85,6-ya bərabərdir.

**Topa sahibolma**

1. "Qarabağ" - 59 faiz
2. "Sabah" - 55,8
3. "Neftçi" - 53,8
4. "Zirə" - 52,2
5. "Qəbələ" - 51,5
6. "Sumqayıt" - 49,2
7. "Səbail" - 44,9
8. "Turan Tovuz" - 44,8
9. "Kəpəz" - 44,2
10. "Araz-Naxçıvan" - 43,2

**Dəqiq ötürmə**

1. "Qarabağ" - 85,6 faiz
2. "Zirə" - 84,6
3. "Neftçi" - 84
4-5. "Qəbələ" - 82,8
4-5. "Sabah" - 82,8
6. "Sumqayıt" - 82,7
7. "Səbail" - 80,5
8. "Kəpəz" - 80,3
9. "Turan Tovuz" - 78,4
10. "Araz-Naxçıvan" - 75,6

# "Qarabağ" - "Neftçi" matçının hakimləri bilindi

***Misli Premyer Liqasında 17-ci turun hakimləri müəyyənləşib.***




"Unikal" PFL-in saytına istinadən xəbər verir ki, matçlar aşağıdakı adları qeyd olunan hakimlərə həvalə olunub:

14 dekabr (cümə axşamı)
"Kəpəz" - "Sumqayıt"
Hakimlər: Cavid Cəlilov, Kamran Bayramov, Cəmil Quliyev, Kamranbəy Rəhimov
Tovuz şəhər stadionu, 15:30

15 dekabr (cümə)
"Araz-Naxçıvan" - "Sabah"
Hakimlər: Fərid Hacıyev, Rəhman İmami, Teymur Teymurov, Əli Əliyev
"Dalğa Arena", 15:00
"Səbail" - "Qəbələ"
Hakimlər: Rauf Cabarov, Müslüm Əliyev, Asiman Əzizli, Emin Əliyev
"ASCO Arena", 13:00

16 dekabr (şənbə)
"Turan Tovuz" - "Zirə"
Hakimlər: Elçin Məsiyev, Elşad Abdullayev, Rahil Ramazanov, Kamran Əliyev
Tovuz şəhər stadionu, 18:00

18 dekabr (bazar ertəsi)
"Qarabağ"- "Neftçi"
Hakimlər: Rəvan Həmzəzadə, Namiq Hüseynov, Vüsal Məmmədov, Kamal Umudlu
Tofiq Bəhramov adına Respublika Stadionu, 20:00

# ÇL-in bombardirlik yarışında gərgin mübarizə



***Mövcud formatla sonuncu dəfə oynanılan Çempionlar Liqasında qrup mərhələsinə yekun vurulub.***

QOL.az xəbər verir ki, digər tərəfdən də turnirdə bombardirlik yarışı davam edir.

Qrup mərhələsinə öz çıxışı ilə damğa vuran 2 komandadan biri "Real", digəri isə "Mançester Siti"dir. Tarixində 14 dəfə ÇL-in qalibi olan "Real" C qrupunda "Napoli", "Braqa" və "Union"u 2 dəfə məğlub etməyi bacarıb. Madrid təmsilçisi maksimum nəticə göstərərək 18 xal toplayıb və qrup lideri kimi 1/8 finala adlayıb. Rəqiblərini 16 dəfə məyus edən "kral klubu" qapısında cəmi 7 top görüb.

"Mançester Siti" isə C qrupunda "Leyptsiq", "Yanq Boyz" və "Srvena Zvezda"nı məğlub edib. "Şəhərlilər" də "Real" kimi maksimum nəticə əldə ediblər (18 xal) və adlarını 1/8 finala yazdırıblar. Xosep Qvardiolanın komandası yalnız qol sayına görə "Real"dan geri qalır. İngiltərə təmsilçisi 18 qol vurub və 7 qol buraxıb.

Xal baxımından ÇL-in 2023/24 mövsümünün ən pis göstəricisi "Srvena Zvezda"ya məxsusdur. Serbiya komandası qrup mərhələsində cəmi 1 xal toplayıb. "Mançester Siti" və "Leyptsiq"ə hər iki matçda uduzan "Srvena Zvezda" "Yanq Boyz"la görüşlərdə 1 dəfə məğlub olub, 1 dəfə heç-heçə edib.

ÇL-in qrup mərhələsində sonuncu olan komandalardan "Sevilya" və "Union" hərəyə 2, "Antverpen" 3, "Mançester Yunayted", "Zalsburq" və "Seltik" hərəyə 4 xal toplayıblar. Qitənin ən vacib klub turnirində son həftəyədək pley-off şanslarını qoruyan "Nyukasl" isə 5 xalla sonuncu olub.

Qrup mərhələsində "Mançester Siti" və Real"dan başqa. 4 komanda da məğlub olmayıb. Bunlar A qrupunu lider kimi başa vuran "Bavariya" (16 xal, 5 qələbə,1 heç-heçə), D qrupunda 1-ci yeri tutan "Real Sosyedad" (12 xal, 3 qələbə, 3 heç-heçə), eyni qrupda 2-ci olan "İnter" (12 xal, 3 qələbə, 3 heç-heçə) və E qrupunda 1-ci pillədə qərarlaşan "Atletiko"dur (14 xal, 4 qələbə, 2 heç-heçə).

Turnirin bombardirlik yarışında 4 futbolçu liderliyi bölüşür. "Mançester Siti"nin norveçli ulduzu Erlinq Haaland, "Atletiko"dan Alvaro Morata, Antuan Qrizmann və "Mançester Yunayted"in forvardı Rasmus Hoylund hərəyə 5 dəfə fərqləniblər.

Ötən mövsüm isə ÇL-in bombardiri 12 qolla məhz Erlinq Haaland olmuşdu.